HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

*15 avqust 2016-cı il*
*№015 (29)*

*yeni_yol@mail.ru* / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / *qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur*

## ƏRDOĞAN: “TÜRKİYƏ-AZƏRBAYCAN-RUSİYA ÜÇTƏRƏFLİ FORMATI YARADILA BİLƏR”



Türkiyə-Azərbaycan-Rusiya üçtərəfli formatı yaradıla bilər.

Bunu avqustun 9-da Rusiyaya səfəri zamanı Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan rusiyalı həmkarı Vladimir Putinlə görüşündən sonra keçirilən mətbuat konfransında deyib.

Rəcəb Tayyib Ərdoğan Rusiya prezidenti ilə görüşündə bu məsələnin müzakirə olunduğunu bildirib.

Türkiyə prezidenti qeyd edib ki, Türkiyə Azərbaycan və Rusiya ilə üçtərəfli formatın yaradılması mexanizminə müsbət baxır.

## İSTANBULDA KEÇİRİLƏN DEMOKRATİYA VƏ ŞƏHİDLƏR MİTİNQİ TARİXDƏ YENİ SƏHİFƏ AÇDI



7 avqust tarixində səhər erkən saatlardan başlayaraq Yenikapı Meydanına axın edən milyonlarla insan dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın gəlişini böyük coşqu ilə qarşılayıb.

Baş nazir və Ədalət və İnkişaf Partiyasının sədri Binali Yıldırım, CHP rəhbəri Kamal Kılıçdaroğlu və MHP sədri Dövlət Baxçalının meydanda toplananları salamlaması milyonlarla vətəndaşın birlik duyğusunu gücləndirib.

Şəhidlər bir dəqiqəlik sükutla yad edildikdən və İstiqlal Marşının oxunmasından sonra Diyanət İşləri rəhbəri Mehmet Görmez, eləcə də burada toplananlar 15 iyulda çevirilişə cəhd nəticəsində şəhid olan 240 vətəndaş üçün dua edib.

Mitinqdə ilk çıxışı MHP rəhbəri Devlet Bahçeli edib. 15 İyulda yeni bir dirilişin müjdəsini verdiniz deyən Bahçeli Türkiyənin taleyinə sahib çıxmasını qürurla izlədiyini söyləyib. 15 İyul tarixinin yeni bir sınaq olduğunu vurğulayan Devlet Bahçeli; “Zalımlar, imperializmin maşaları bu dəfə türk hərbi formasını geyindilər. Elm adamı və müəllim görüntüsü yaradan bir terrorist təşkilata Türkiyəni vur əmrini verdilər”-deyə vurğulayıb. O gecə tankların önündə milli vicdanın durduğunu deyən MHP lideri, Türk millətinin güllə yağışının üzərinə gül bağçasına girənlər kimi getdiyini vurğulayıb.

Mintinqdə daha sonra çıxış edən CHP lideri Kamal Kılıçdaroğlu isə yaşanan bu böyük bəladan bütün siyasətçilərin dərs çıxartmasının vacibliyini vurğulayıb. Zamana uyğunlaşmış, mədəni dəyərlərinə sahiblənmiş Türkiyənin məsciddə, hərbi hissədə, ədliyyədə siyasət yürütməməsinin gərəkdiyini deyən Kılıçdaroğlu bütün şərtlərdə demokratiyaya sahib çıxılmanın əhəmiyyətinə diqqət çəkib:

“Nə hərbi çeviriliş, nə də diktatorluq. Yaşasın demokratiya” – deyə səslənən CHP lideri millətin iradəsi üzərində yer ala biləcək bütün kölglərin aradan qaldırılmasının vacibliyini vurğulayıb. Cumhuriyyəti yaşadıb qorumağın hər kəsin borcu olduğunu vurğulayan Kamal Kılıçdaroğlu parlament sisteminin daha da gücləndirilməsini istəyib.

Kılıçdaroğludan sonra tribunaya Baş Qərargah rəisi, general Hulusi Akar çıxıb. O, böyük alqışlarla qarşılanıb.

Baş Qərargah rəisi çıxışında 15 İyulda Türkiyə Silahlı Qüvvələrinə sızmış bir qrup terroristin (FETÖ/PDY) Vətənə və millətə tarixdə görülməmiş bir rəzalət yaşatdıqlarını, lakin layiq olduqları cavabı yenə də millətdən aldıqlarını vurğulayıb.

Türkiyə Silahlı Qüvvələrində vəzifəsini şərəflə yerinə yetirən qəhrəmanların əliqanlı canilərdən təmizlənməsinin mənəvi rahatlıq hissi yaşatdığını ifadə edən Baş Qərargah rəsi bundan sonra da Türk ordusunun dövlətin əmrində və vəzifəsinin başında olduğunu vurğulayıb. Hulusi Akar çıxışını “zəfər qanunun aliliyinə, demokratiyaya, zadəgan millətimizin yüksək dəyərinə inanlarındır! Əziz xalqımızın yolu və bəxti açıq olsun!” sözləri ilə yekunlaşdırıb.

Baş nazir Binali Yıldırım isə çıxışına meydana toplanan bütün siyasi müxalifət partiya rəhbərləri və tərəfdarlarını, həmçinin ölkənin 81 şəhəri və Şimali Kıbrıs Türk Cumhuriyyətini, mitinqi izləyən hər kəsi salamlamaqla başlayıb.

15 İyul tarixinin Türk millətinin 2-ci Qurtuluş Savaşı olduğunu vurğulayan Binali Yıldırım əlavə edib ki, bu xalq torpaq üzərində şərəfsiz yaşamaqdansa, torpağın altında şərəflə uyumağı seçdi. Baş nazir separatçı təşkilat PKK-nın da vətəndaşlar arasına nifrət, nifaq toxumu səpməsinə son qoyulacağını bildirib.

15 İyulun mikroblardan təmizlənmə günü olduğunu deyən Binali Yıldırım xalqı narahat edən bütün ünsürlərin aradan qaldırılacağını vurğulayaraq əlavə edib ki, FETÖ rəhbəri Türkiyəyə gələcək və bu xəyanətin hesabını verəcək!

Mitinqdə Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri İsmayıl Kaharman da çıxış edib. Xain cəhdin yaşandığı 15 iyul gecəsində Millət Məclisinin açıq olduğunu və işlərini davam etdirdiklərini xatırladan sədr çeviriliş cəhdi edənlərin təkcə Məclisə deyil, millətin də ürəyinə bomba atdığını deyib. Lakin əzm və cəsarətlə xain cəhdin qarşısını alan xalqın bununla da hərbi çeviriliş taixinə son qoyduğunu vurğulayıb. Türkiyə Böyük Millət Məclisinin sədri çıxışını; “Millət dövlətsiz, dövlət ordusuz olmaz” sözləri ilə yekunlaşdırıb.

Mitinqdə ən sonda çıxış edən prezident Rəcəb Tayyib Ərdoğan bu direniş üçün xalqa təşəkkür etdikdən sonra “Bütün fərqliliklərini bir kənara buraxaraq hər mənşədən olan insanıyla dünyanı özünə heyran buraxan bütün vətəndaşlarımızın qəzası mübarək olsun. Əgər bu çevriliş olsaydı bu ölkə torpaqlarının kimlərin əlinə keçəcək olduğunu çox yaxşı bilirsiniz.” deyə çıxış edib və sonda “Bu axşam demokratiya keşiyinə bir vergül qoyuruq. Çərşənbə axşamı nöqtəni qoyacağıq.” deyə vurğulayıb.

## GİORGİ MARQVELAŞVİLİ ŞİNDİSİ QƏHRƏMANLARININ XATİRƏSİNİ YAD ETDİ



Gürcüstan prezidenti Giorgi Marqvelaşvili 2008-ci ilin avqust ayında Şindisi kəndində həlak olan gürcü hərbçilərinin xatirə abidəsini ziyarət edib, memorialın qarşısına əklil qoyub.

Şindisidə həlak olanların xatirəsinə ucaldılmış abidə önündə Gürcüstan prezidenti Giorgi Marqvelaşvili Vətən uğrunda canlarından keçmiş gürcü döyüşçülərini ehtiramla yad edərək, bunları deyib: “Biz, Gürcüstan vətəndaşları buraya minnətdarlıqla, öz həyatı bahasına bizi qəhrəmanlıqla qoruyan, paytaxtı qoruyan, vətənimizi xain düşməndən qoruyan igidlərə ehtiramımızı göstərməyə gəlmişik. Onların adlarına əhsən deyirik, onların ailələri sağ olsun ki, belə oğullar, ərlər və qardaşlar böyüdüblər “.

Xatırladaq ki, 11 avqust 2008-ci il tarixində Şindisi kəndində 2-ci briqadanın 17 hərbi qulluqçusu döyüş əməliyyatı zamanı qəhrəmancasına həlak olub. Həmin yerdə indi qəhrəmanların xatirəsinə abidə ucaldılıb.

## GÜRCÜSTAN KONSTİTUSİYASINDA NATO HAQQINDA DÜZƏLİŞ EDİLƏ BİLƏR



David Usupaşvili parlament fraksiyalarını ölkə Konstitusiyasının preambulasına ölkənin Avroatlantik strukturlara inteqerasiyası haqqında qeydlərin daxil edilməsi barədə təşəbbüsü dəstəkləməyə çağırıb.

Parlament sədri artıq Konstitusiyanın preambulasına bu cür düzəlişin edilməsi haqqında qanunvericilik təşəbbüsünü imzalayıb.

Bir qədər əvvəl Nino Burcanadze və bir çox siyasətçilər qanunvericilik orqanına Konstitusiyada ölkənin bloklara qoşulmamaq statusu haqqında düzəliş edilməsi üçün imza toplamaq niyyətində olduqları barədə müraciət etmişdilər.

Parlament sədri qeyd edib ki, bu təşəbbüs Gürcüstanın heç bir bloka daxil olmasını inadla istəməyənlərə cavab olacaq.

Usupaşvili deyib: “Bu bizim ardıcıl siyasətimizin ifadəsidir. Bir ay qabaq biz, bütün parlament fraksiyaları prezidentin və baş nazirin öz imzaları ilə təsdiq etdikləri Avroatlantikaya inteqrasiya haqqında birgə bəyanat imzalamışıq”.

## GÜRCÜSTAN DTX-NİN RƏHBƏRİ AZƏRBAYCAN PREZİDENTİ İLƏ GÖRÜŞÜB

Gürcüstan DTX-nin rəhbəri Vaxtanq Qomelauri avqustun 3-də Azərbaycan prezidenti İlham Əliyevlələ görüşüb.

Görüşdə iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən də təhlükəsizlik orqanları arasında ikitərəfli münasibətlərin genişləndirilməsinin vacibliyi qeyd olunub. Azərbaycan və Gürcüstan xüsusi xidmət orqanlarının qarşılıqlı fəaliyyətinin hər iki ölkənin təhlükəsizliyinin möhkəmləndirilməsi işinə töhfə verməsi vurğulanıb.

Qomelauri Bakıda azərbaycanlı həmkarı Mədət Quliyevlə də görüşərək, informasiya və idarələr arasında təcrübə mübadiləsi məsələlərini də müzakirə edib.

Yayılan məlumata görə, görüşün sonunda tərəflər iki ölkənin təhlükəsizlik xidmətləri arasında əməkdaşlıq haqqında Memorandum da imzalanıb.

## TÜRKİYƏDƏKİ HƏRBİ ÇEVRİLİŞ CƏHDİNİN XARİCİ BAĞLANTILARI

**Hazırda Türkiyənin siyasi həyatında baş verənləri istinasız dünya gündəmini zəbt edən bir hadisə kimi dəyərləndirmək mümkündür. İyulun 16-na keçən gecə Türkiyəni silkələyən (Təkcə Türkiyənimi?) hadisə aradan bir aya qədər vaxt keçməsinə baxmayaraq, bu gün də araşdırılmada, bu hadisəyə Türkiyənin dostlarından və düşmənlərindən bir-birindən kəskin şəkildə fərqlənən münasibətlər sərgilənməkdədir. Hadisənin təsir dairəsinin genişliyi, onun yaratdığı rezonanas ölkəmizdə də hiss edildi.**

15 iyul gecəsi Türkiyədə olub bitənlərə hərə bir prizmadan, bir baxış bucağından baxdı və bu gün də bu cür baxmaqda davam etməkdədir. Bu, Türkiyənin bir iç məsələsi olsa da, məsələ region ölkələrinə, hətta dünyaya ölkələrinə də öz təsirini göstərdi. Əcaba, Türkiyədə baş verənlər nə idi? Son illərdə ölkənin yüksələn xətlə inkişaf edən iqtisadiyyatı, müxtəlif sahələrdə, o cümlədən də ictimai, siyasi, mədəni inkişaf fonunda 15 iyul hadisələrinin baş verməsi nə dərəcədə labüd idi?

Oradan başlayım ki, cumhürriyyət dönəmində hərbiçilərin Türkiyədə hakimiyyəti əla almaları, demokratik təsisatları məhdudlaşdırmaları və ya bunlara cəhd etmələri birinci dəfə baş vermirdi. Türk insanı hərbi çevriliş anlayışını qavramaqda çətinlik çəkməyən bir insandır. O, hərbi çevrilişin gerçəkliklərini öz həyatında görüb hiss etmiş, bunu yaşamış biridir, yəni türk insanı baş verənlərin mahiyyətindən kifayət qədər xəbərdar idi. Və bu üzdən də, onun küçələrə çıxması, tankların tırtılları altına uzanmaq cəhdi, hərbi çevrilişə yox deməsi, vətəndaş cəmiyyətini qorumağa yönəlik hərəkətlərdə bulunması təbii idi. Təbii haqları uğrunda mübarizəyə qalxması, lazım gələndə bu yolda canını fəda etməsi onun demokratik dəyərlərə bağlılığının, azadlıq aşiqi olmasının bir bəlirtisi deyilmi?

Türkiyənin yerləşdiyi coğrafiya zaman-zaman burada müxtəlif fikir və düşüncə axınlarının, müxtəlif ideyaların intişar tapmasına, cəmiyyətin müxtəlif təbəqələri arasında özünə tərəfdarlar toplamasına şərait yaradır. Son olayların qabarıq görünən və üzə çıxan tərəfi də, fikrimcə, ideyaların, strategiyaların toqquşması idi. Türkiyə yetkili dairələrinin də müəyyən etdikləri kimi, bu hadisələrin qurucuları və həyata keçirilməsində maraqlı qüvvələr Fəttullah Gülən və ona bağlı olanlardır. Okeanın o tayında outran Gülənin istəklərini, Türkiyədə oynamaq istədiyi oyunları bir kənara buraxıb, belə bir sual qoymaq istəyirəm: F. Gülən niyə Pensilvaniyadadır? Ona Türkiyədə və ya müsəlman ölkələrinin birində oturmağa yer qəhətdirmi? Niyə məhz ABŞ? Məsələyə başqa bir rakursdan da yanaşmaq olar. Əgər bu Fəttullah Gülən və ya onun başının yığnağı Türkiyədə siyasi iqtidara gəlmək istəyirdisə, Türkiyənin indiki durumuna bir çəki-düzən vermək niyyətində idisə nədən bunu sivil bir yolla həyata keçirmək istəməsin? Deyək ki, Gülən bir partiya düzənləyib, ölkə konstitusiyasına uyğun hakimiyyət uğrunda mübarizəyə qalxıb, tərəfdarlarının sayını artırmaq yolu ilə siyasi marofonda öz rəqiblərinə qalib gələrək, hakimiyyəti qanuni yolla mənimsəyə bilərdi. Amma hərbi çevrilişə cəhddən də bəlli olduğu kimi, Gülən bu yolu seçmədi.

Gülənin nədən bu yolu seçməməsi bu sitiuasiyada ən maraq doğuran məsələdir. O üzdən ki, bu olaylarda ən müəmmalı məsələ də məhz bu olmalıdır. Gülənin belə bir yol tutması torbadakı pişiyin böyüklüyündən xəbər verir və ya təbiri caizsə belə çıxır ki, Gülən s…-yi duru adam deyil. Qayıdaq torbadakı böyük pişik məsələsinə. Əgər biz ehtiyatı əldən vermədən torbanın ağzını azacıq aralayıb baxa bilsək, oradakı məxluqu əlbəhəl tanıya biləcəyik və Güləni okeanın o tayına aparıb çıxaran səbəbi də aydınlaşdırmış olacağıq. Okeanın o tayında patronlarının cızdığı planlara uyğun olaraq tərəfdarlarına təlimatlar verməklə, Türkiyəni qarışdırmaq Gülənin əsas məqsədidir. Əslində bu Gülənin yox, onun patronlarının strateji məqsədləridir. Yaxın Şərqi nəzarətdə saxlamaq istəyən Sem dayının, yəni ABŞ-ın məqsədidir, regionda Türkiyənin artan nüfuzunu sarsıtmaq istəyən dövlətlərin məqsədidir. Hərbi çevrilişə cəhd olaylarında Qərbin tutduğu mövqe, bu olayları öz arşını ilə ölçərək, qiymətləndirməsi dediklərimizi təsdiqləmirmi? Qərbin mütərəqqi fikirli adamlarının öz ölkələrinin Türkiyəyə qarşı sərgilədikləri münasibətlərdən utandıqlarını dilə gətirmələri, öz dövlət başçılarını Türkiyəyə qarşı münasibətdə dürüstlüyə dəvət etmələri də bizim fikrimizin doğruluğuna şübhə yeri qoymur.

Sonda 15 iyul hadisələrinə qiymət verərkən bir daha da vurğulamaq istəyirəm ki, başda da qeyd etdiyim kimi, bu hadisələr Türkiyənin daxili bir məsələsi olsa da, bəlkə də bundan da çox xaricdən qaynaqlanan, Türkiyəni sevməyən qüvvələrin oynadıqları məkrli planla bağlı bir məsələdir.

Oxucularımızın marağını nəzərə alaraq qəzetimizin bu sayında 15 iyul hadisələrinə geniş yer ayırmağı məqsədəuyğun hesab edərək, bir neçə səhifəmizi bu məsələyə həsr etmişik.

Afiq MUXTAROĞLU

## TÜRKƏYƏDƏ BAŞ VERƏNLƏRƏ DAİR BİR NEÇƏ SÖZ

***Son günlərin ən aktual mövzusu 15 iyul tarixində qardaş Türkiyədə baş verən çevriliş aktıdır. Bu barədə inanıram ki, lazımınca yazılar yazıldı, fikirlər söyləndi. Ancaq mən bu hadisədə bəzi media nümayəndələrinin, yəni həmkarlarımın fikirlərinə toxunmaq istəyirəm.***

Qardaş və doğma Azərbaycanın bir neçə xəbər saytına göz gəzdirdim, ancaq təhqirdən və nalayiq sözlərdən başqa, qocalar demişkən, urvatlı bir yazıya rast gəlmədim. Amma unutmaq lazım deyil ki, istər Azərbaycanda olsun, istərsə də dünyanın digər yerlərində millətimiz bir sıxıntıya düşəndə Türkiyə köməyimizə çatıb. Ancaq bu gün Türkiyə bir balaca sıxıntıya düşdü deyə Avropa və Amerika yanlısı olduq, başladıq baltalamağa. Dünən İran üçün, bu gün də Türkiyə üçün başladıq ki, molla dövlətidir. Ancaq bir araşdırmırıq ki, bu molla sözü nə olan kəlmədir? Molla adını dədələrimiz elm, irfan sahibləri üçün işlədərmiş ki, bu da bilikli, savadlı deməkdir. Nə yazıq ki, keçmiş ateist sovet rejimi bu adı təhqir edərək, pul üçün dinini satan din adamının adı kimi ləkələyərək, təqdim etdi.

Gəlin Türkiyənin yaxın keçmişinə və bugününə nəzər salaq. Osmanlının sona çatması ilə dinsizlik baş alıb getdi. Əzanlar qadağan olundu və ya türkcə oxunmağa başlandı. Baş örtüsü, Quran, namaz tamamilə qadağan edildi. Bunlara əməl edənlər isə təhsil ocaqlarına, iş yerlərinə alınmadı. Gəlin bir də bugünə baxaq. İstəyən istədiyi şəkildə istədiyi dini yaşaya bilir.

Bir də ki, dini yaşantının nəyi pisdir? Doğruluq, güvənli olmaq – bunlar çoxmu pis şeylərdir? Var-dövlət gözlərini o qədər kor edib ki, vətən, torpaq veclərinə deyil. Amerikanın, İngiltərənin əllərinin uşağı olublar. "Ey iman edənlər! Yəhudiləri və xristianları dost tutmayın. Onlar bir- birlərinin dostudur. Sizdən hər kim onları dost tutarsa, o da onlardandır" (Maidə 51) ayəti tam bu insanlara aiddir.

Bu çevriliş aktında bu oyunu quranların yardımçıları onu düşünməlidirlər ki, oyunun qurucuları onlardan sadəcə istifadə edirlər. Çünki onlar gözəl bilirlər ki, öz doğma vətəninə xəyanət edənlərdən onlara fayda gəlməz. Öz vətənini satan başqasına nələr etməz ki?..

Bir də ki, bu xəyanəti edənlərin mən inanmıram ki, qanı türk qanı olsun. Çünki türkün damarında Atillanın, Ərtoğrulun, Osman Qazinin, Səlcuqun və daha neçə-neçə igidlərin qanı axır. Əsl türk vətəninə xəyanət etməz. Bunun də açıq-aşkar misalı bu çevrilişdə yaşandı. Əsl türklər meydana çıxdılar və vətənlərini qorudular. Daha bəziləri kimi Amerikada oturub onun-bunun yağlı vədləri ilə öz vətənində milləti qırğına sürükləmədilər.

Bu çevrilişi həyata keçirmək istəyənləri nəzərə alası olsaq, onların fəaliyyətlərinə baxmalıyıq. Sən demə, bu camaat dindən başqa hər şeylə məşğul olurmuş. Təhsil mərkəzlərindən sualların oğurlanması, camaatdan din adına yığılan pulla futbol komandasının alınması və başqa-başqa bu kimi işlər, bunların əsas prinsipləri imiş.

Bunların da ən yuxarıda duranı Fətullah Güləndir ki, bu adam özünü bir dini lider, Allah dostu və peyğəmbər (s.ə.s)-aşiqi bir şəxs kimi qələmə verir. Başına da bir neçə "abi"sini yığaraq millətə hər cür oyun oynayır.

***Bu camaatın dünyanın bir çox yerində müxtəlif sahədə məktəbləri və başqa-başqa müəssisələri olduğu da aşkardır. Amma nədənsə bir dini liderin təşkil etdiyi heç bir müəssisədə dini dərslərə yer verilmir. Bu məktəblərdə isə ancaq vəzifəli və maddi cəhətdən vəziyyəti yaxşı olanların uşaqları oxuyur. Bəs hanı sənin dindarlığın, mərhəmətin ki, imkansızlara dəstək olmursan?***

Hacı BƏKİROĞLU

## MARTİN LEJEUNE: "TÜRK XALQI NOBEL SÜLH MÜKAFATI İLƏ TƏLTİF EDİLMƏLİDİR"



Fətullahcı Terror Təşkilatı Paralel Dövlət İdarəçiliyinin çevriliş cəhdinin yaratdığı fəsadları yaxından görmək və məlumat əldə etmək məqsədilə Türkiyəyə gələn almaniyalı jurnalist Martin Lejeune qərbli həmkarlarının Türkiyədə baş verənləri anlamadıqlarını qeyd edib.

Prezidenti Rəcəb Tayyib Ərdoğanın çağırışına görə avqustun 7-də İstanbulda keçirilməsi nəzərdə tutulan Demokratiya Mitinqini Qərb ölkələrinin gözdən qaçırmamalarının lazım gəldiyini ifadə edən journalist bildirib: "Kansler Angela Merkelin İstanbuldakı mitinqə qatılmasını xahiş edirəm. Bu onun türk xalqına hörmətinin və türk xalqının demokratiya nümayişlərinə dəstəyinin göstəricisi olar. Bu addımın atılmasına türk xalqının yox, almanların ehtiyacı var".

Türk xalqının çevriliş cəhdi əsnasında demokratiyanın qorunması uğrunda tankların önünə uzanaraq terrorçulara müqavimət göstərməsindən çox təsirləndiyini ifadə edən Martin Lejeune deyib: "Türk xalqının sərgilədiyi müqaviməti Fransız inqilabına bənzədirəm. Onlar demokratiya dedilər. Türk xalqı Nobel sülh mükafatı ilə təltif edilməlidir".

Qərb ölkələrinin Türkiyədəki çevriliş cəhdi ilə əlaqəli tutduqları mövqeyi tənqid edən jurnalist, Türkiyənin 81 şəhərində Demokratiya Mitinqləri təşkil edildiyini, lakin Qərb mətbuatının 20 gündür buna biganə qaldığını vurğulayıb.

## ALMANİYA VİTSE-KANSLERİ TÜRKİYƏ - AVROPA İTTİFAQI MƏSƏLƏLƏRİNDƏN BƏHS EDİB



Almaniya vitse-kansleri Ziqmar Qabriel Türkiyənin Avropa İttifaqına daxil olma ehtimalını tam şübhə ilə qiymətləndirib. Bu barədə siyasətçi alman ictimai-hüquq televiziya kanalı ARD-yə müsahibəsində bildirib.

"Mən Türkiyənin yaxınlarda – 10 və ya 20 ildən danışıram – Aİ-yə daxil olmaq ehtimalının olmasını düşünmürəm" – Z. Qabriel qeyd edib. Onun sözlərinə görə, Ankara lazım olan bütün tələbləri yerinə yetirdiyi təqdirdə də, bu mümkün deyil. O, izah edib ki, hazırda Aİ-nın "hətta kiçik dövlətləri" qəbul etmək imkanları da yoxdur.

Bununla belə siaysətçi Ankara ilə bu məsələyə dair danışıqların aparılmasından imtina edilməsini məqsədəuyğun hesab etmir. "İndi düşdüyümüz durumda Türkiyə ilə dialoq üçün istənilən vasitədən istifadə etmək gərəkdir" – o, vurğulayıb. Alman siyasətçi Aİ ilə Türkiyənin qaçqınlara dair razılaşmanı pozmamağa və türklər üçün viza rejiminin mümkün sadələşdirilməsinə çağırıb. Onun sözlərinə görə, bu iki mövzu heç cür bir-birilə bağlı deyil.

Almaniyada qaçqınlar məsələsinə toxunan Ziqmar Qabriel mühacirlərin inteqrasiya olunması üçün gərəkli şəraitin yaradılmadığını da bildirib. "Biz öhdəsindən gəlirik demək, kifayət deyil. Həmçinin bunu etmək gərəkdir" – deyən siyasətçi Almaniya kansleri Angela Merkelin mövqeyini tənqid edib.

## RUSİYA-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN YENİ MƏRHƏLƏSİ

***Türkiyə hökümətinin ABŞ və Avropa İttifaqı ilə yaşanan soyuq münasibətləri fonunda prezident Rəcəb Tayyib Ərdoğanın Rusiya səfərini şübhəsiz ki, Qərb dünyası siyasi qısqanclıqla izləyəcəkdir. Çünki, bu,Türkiyədə legitim hakimiyyətin devrilməsi üçün dövlət çevrilişinə cəhddən sonra ölkəninin birinci rəsmisinin ilk xarici səfəridir. Səfərin əsas məqamlarının rəsmi olaraq iqtisadi məsələlər olacağı vurğulansa da, əslində bunun rus-türk münasibətlərində ümumiyyətlə yeni bir dövrün başlanğıcı olması sirr deyil.***

Bəri başdan vurğulamaq lazımdır ki, həm Rusiya, həm də Türkiyə rəhbərləri görüşə xüsusi önəm verirlər. Artıq rəsmi Ankaranın xarici siyasətində ölkənin çıxarları üçün qətiyyətli və radikal addımlar atmasının məqamı yetişmişdir. Qonşu dövlətdə baş vermiş son olayların görünməyən izlərinin okeanın o biri tərəfinə gedib çıxması Rusiya-Türkiyə münasibətlərinin düz müstəviyə çıxmasını bir qədər də sürətləndirdi. Hərbi çevriliş "sifarişinin" indiyədək Ankaranın Kremlə qarşı əks qütbdə formalaşmış tərəfdaş-dövlətlər düşərgəsindən gəlməsi bundan sonra Türkiyənin dünyaya baxış bucağını və diplomatik addımlarında köklü dəyişikliklərin olacağına işarədir. Son zamanlar daxilində yaşanan böhran vəziyyəti və terror olaylarının artması, həmçinin xaricdən də yetərli dəstək ala bilməməsi Türkiyənin beynəlaxlq arenada təklənməsinə işarədir. Almaniya parlamentində qondarma "erməni soyqırımı" qəbul edildikdən sonra Ankaranın Avropada ən etibarlı tərəfdaşı ilə münasibətlərində yaşanan soyuqluq, ABŞ-ın YPG və PYD-ni PKK-nın terror qanadı kimi tanımaq istəməməsi və onları İŞİD-ə qarşı mübarizə adı altında silahlandırması, Böyük Britaniyanın Avropa İttifaqından çıxması fonunda Türkiyənin xarici siyasət rotasında dəyişikliyi anlaşılandır. Əlavə olaraq, uzun illər Türkiyənin Avropa İttifaqından haqlı umacaqlarını ala bilməməsi və Vaşinqtonun "xəyanəti" Ankaranı alternativ addımlar atmağa vadar edir. Dəfələrlə yazılıb-deyilən çoxsaylı səbəblər üzündən hal-hazırki Türkiyə iqtidarını Vaşinqton və "Köhnə qitə" ölkələrinin qəbulla-na bilmədiyi məlumdur. İkincilərin fikrincə, Qərb dünyasının Rusiyanın zəifllədilməsi və çökdürülməsinə hesablanmış siyasətində Ankara ümumi komandada "oyunpozanlıq" edir. Ona görə də, hətta qeyri-konstitusion yolla olsa belə Ərdoğananın hakimiyyətdən kənarlaşdırılması onların ümumi marağının bir hissəsidir.

Ankaranın Moskva ilə münasibətlərinin pozulmasında da Qərbin rolunun az olmadığı məlumdur. Rusiya ilə siyasi gərilim yaşayan Türkiyə məhz "dost"ları tərəfindən diplomatik arenanın küncünə sıxışdırılaraq, ona bu meydanın ilk sıralarında yer olmadığını diqtə etmək istədilər. Suriya məsələsində Türkiyənin mövqeylərini itirməsi deyilənlərə nümunədir.

Məsələnin o biri ucunda isə dövlətin iqtisadi maraqlarının olduğunu vurğulamaq lazımdır. Türkiyə tərəfindən rus hərbi təyyarəsinin vurulmasından sonra qarşılıqlı rus-türk iqtisadi əlaqələrində yaşanan böhran, şübhəsiz ki, heç bir tərəfi qane etmir və əksinə, münasibətlərin dinamik inkişafının strateji iqtisadi tərəfdaşlıq səviyyəsinə qaldırılmasının labüdlüyünü artırır. Hal-hazırda Qərbin iqtisadi embarqoları səbəbindən enerji bazarlarında alıcı axtaran Rusiya üçün Türkiyə potensial müştəridir. Moskva rus qazının Türkiyəyə ixracını nəzərdə tutan "Türk axını" lahiyəsinin reallaşmasna böyük önəm verir. Ankara isə sərfəli qiymətlərlə enerji daşıyıcılarının əldə edilməsi, kənd təssərüffatı məhsullarının rus bazarına yenidən daxil olması və türk iqtisadiyyatında önəmli çəkiyə sahib olan turizm sektorunun rus turistləri hesabına canlanmasında maraqlıdır.

***Artıq Türkiyənin xarici siyasətdə NATO ailəsinə daxil olan tərəfdaşlarının rəyinə və ya onların narazılığına məhəl qoymadan tam müstəqil addımlar atacağı hiss edilir. Çünki, Ankaranın Qərb tərəfdaşlarının Türkiyə qarşısında etibardan düşdüyü göz qabağındadır. Siyasətdə isə daimi heç nə yoxdur, yalnız daim dəyişən maraqlar var. Uğurlar, Türkiyə!***

Sahib MUSTAFA

## İSVEÇİN SABİQ BAŞ NAZİRİ AVROPA ÖLKƏLƏRİNİ SƏRT TƏNQİD EDİB



İsveçin sabiq Baş naziri və Xarici İşlər naziri Karl Bildt Avropanı Fətullahçı Terror Təşkilatı Paralel Dövlət İdarəçiliyinin (FETÖ/PYD) çevirilişə cəhdinə etiraz bildirmədiyinə görə günahlandırıb.

Sabiq Baş nazir mərkəzi ofisi ABŞ-da yerləşən "Politico" saytında dərc edilən və "Avropa, Ərdoğanı müdafiə et" başlıqlı məqaləsində demokratik dəyərlər üzərində qurulmuş bir ölkədə dövlətin ordu tərəfindən çevirilişinin lüzumsuz olduğuna diqqət çəkib.

"Brüssel yuxudadır? Yoxsa hələ də məlumatsızdırmı?" – deyə sual edən İsveçin sabiq naziri Türkiyədə 15 iyul tarixinə laqeyd münasibət göstərməkdə olan Avropa liderlərindən bu barədə soruşulması gərəkdiyini vurğulayıb.

Türkiyədə çeviriliş baş tutacağı təqdirdə ölkədə vətəndaş müharibəsinin baş verəcəyini və bunun ağır nəticələrə səbəb olacağını deyən Karl Bildt milyonlarla türkün demokratiyaya sahib çıxmasını alqışlayıb. Əgər belə olmasaydı vətəndaşlar zorakılıq, xaos və ölümdən qaçaraq, Türkiyəyə sığınan 2 milyon suriyalıya qoşularaq Avropaya istiqamət alacaqdı. Sabiq baş nazirə görə belə olan halda isə Avropa İttifaqı 2015-ci ildə yaşadığı miqrant böhranından daha böyük fəsadla üzləşəcəkdi.

Məqalədə qeyd olunur: "Çevirilişə cəhd gecəsindən sonra Türkiyənin quruma tamhüquqlu namizəd olmasına, ölkəyə, onun konstitutiyasına qarşı ən ağır təhdid edilməsinə baxmayaraq, Avropa İttifaqının nümayəndələrindən hər hansı bir əsaslı dəstək müşahidə olunmadı. Türkiyəyə hər hansı bir səfər reallaşdırılmadı. Əksinə avropalı liderlər Türkiyə rəsmilərini əsassız iddialarla çəkişdirməyə başladılar."

Aİ-nin Fransanın paytaxtında noyabr ayında törədilən terror aktından sonra həssas münasibət sərgilədiyini xatırladan sabiq Baş nazir Türkiyənin Avropa İnsan Haqları Konvensiyasından imtina istəyində haqlı olduğunu vurğulayıb.

"Şübhəsiz ki, qanuni hakimiyyəti və konstitutsiyasını devirməyə çalışan qüvvələrə qarşı lazımlı tədbirlər görmək və özünü qorumaq Türkiyənin haqqıdır və bunu etmək məcburiyyətindədir. Türkiyənin həyata keçirdiyi müvafiq tədbirlərin isə ciddi risk olması iddiasını irəli sürənlər yanılırlar" – deyə məqalədə vurğulanıb.

Avropa Şurasının Baş katibi Torberinq Yaqlandın bu həftə Ankaraya səfər planını müsbət dəyərləndirən Karl Bildt deyib ki, əgər Avropa İttifaqı liderləri Türkiyəyə dərhal getsəydi, çeviriliş cəhdinə etirazını bildirsəydi, Türkiyə xalqını təbrik etsəydi, dövlət başçısı, hökumət və Millət Məclisinin üzvlərilə birlikdə olsaydı, qurum bu gün daha yaxşı bir mövqe tutardı. Belə vəziyyətdə Avropa ən azından siyasi ideyalarını və demokratik dəyərlərini müdafiə etmiş, sınamış olardı".

İsveçin sabiq Baş naziri və Xarici İşlər naziri Karl Bildt məqaləsində onu da vurğulayıb ki, çevirilişə cəhddən sonra dövlət başçısı Ərdoğana ilk olaraq Rusiya prezidenti Vladimir Putinin telefon açaraq, dəstəyini nümayiş etdirməsi Avropa üçün qara ləkədir.

## ÇAVUŞOĞLU: AVROPA İTTİFAQI TÜRKİYƏNİ ÖZ SƏHVLƏRİNƏ GÖRƏ İTİRƏ BİLƏR



Türkiyə Xarici İşlər Nazirliyinin başçısı Mövlud Çavuşoğlu bəyan edib ki, Avropa İttifaqı Türkiyəni Rusiya ilə münasibətlər üzündən deyil, öz səhvlərinə görə itirə bilər. Bu barədə Reuters agentliyi məlumat yayıb.

Türkiyəli nazir deyib:"Əgər Qərb Türkiyəni itirirsə, Rusiya, ÇXR və ya islam dünyası ilə münasibətlərin nə günahı? O, öz səhvlərinə görə Türkiyəni itirir".

Onun sözlərinə görə, Aİ çevrilişə cəhdi dəstəkləməklə ciddi səhvə yol verir.

Xatırladaq ki, Türkiyədə hərbi çevrilişə cəhd iyulun 16-sına keçən gecə baş vermişdir.

## TÜRKİYƏ PARLAMENTİ ÖLÜM HÖKMÜNÜ BƏRPA ETMƏYƏ HAZIRLAŞMIR



Türkiyə parlamenti 2016-cı ilin iyulunda baş vermiş çevriliş cəhdinə görə yaxın gələcəkdə ölüm hökmünü bərpa etməyi nəzərdə tutmur.Bu barədə Brüsselin Euobserver nəşrinə müsahibə verən hakim Ədalət və İnkişaf partiyasından deputat Sena Nur Çelik bəyan edib.

Brüsselə səfəri zamanı parlamentin xarici işlər komitəsinə başçılıq edən Çelik bidirib: "Bu məsələ bizim gündəliyimizdə durmur, o, parlamentin də gündəliyində durmur".

Çelik hazırda türk əhalisi arasında ölüm hökmünə tələbatın yüksək olduğunu qeyd edib. O, əlavə edib ki: "Düşünürəm, bunun səbəbi hazırda insanların həyacanının çox yüksək olmasıdır, lakin zamanla nə hiss etdiyimizi görəcəyik".

Xatırladaq ki, iyulun 15-dən 16-a keçən gecə Türkiyədə bir qrup hərbiçi dövlət çevrilişinə cəhd etmişdir. Həmin gecə Ankarada Türkiyə parlamenti də atəşə tutulmuşdu. Qarşıdurmalarda 265 adamın həlak olduğu da öz təsdiqini tapıb.

## RODERİKA KİESVETTER: AVROPA HEÇ VAXT TÜRKİYƏYƏ ƏDALƏTLİ YANAŞMAYIB



Türkiyənin Avropa Birliyinə üzvlüyü ilə bağlı danışıqların aparılması onun Rusiya və Çinlə yaxınlaşmasının qarşısını almaq üçündür.

Axar.az xəbər verir ki, bunu alman mətbuatına açıqlamasında millət vəkili Roderika Kiesvetter söyləyib.

Onun sözlərinə görə, AB ilə Türkiyə arasındakı müzakirələrin dayandırılması Qərb üçün böyük xəta olacaq:

"Türk cəmiyyəti üzərindəki təsirimizi davam etdirməliyik. Üstəlik, Avropa perspektivinə inanan, insan haqları, hüquq dövləti və mətbuat azadlığı standartlarının gücləndirilməsini istəyənləri dəstəkləməliyik. Bundan kənarda olan hər şey radikalları gücləndirəcək. Əgər müzakirələri dayandırsaq, Ərdoğan Qərbdən uzaqlaşacaq və bəlkə NATO-dan da çıxmağa cəhd edəcək. Bunun qarşısını almaq lazımdır. Türkiyə bir çox sahədə AB-yə ondan öncə üzv olan Ruminiya və Bolqarıstandan daha önəmlidir. Ankara ilə müzakirələrin məqsədi Türkiyənin üzvlüyü deyildi. Burada məqsəd Türkiyənin Rusiya və ya Çinlə yaxınlaşmamasıdır. Ümumiyyətlə, yaxın gələcəkdə Ankara AB-də olmayacaq. AB heç vaxt Türkiyəyə qarşı dürüst olmayıb. AB-nin hədəfi ətrafında stabil ölkələr yaradılmasıdır. 75 milyon əhalisi və 500 minlik ordusu olan ölkənin stabil olmasından əl çəksək, ətrafımızda qeyri-stabil bölgə yaratmış olarıq. AB ilə müzakirələr davam etməlidir, amma onun 10 il ərzində AB-yə üzv olmayacağını da dürüst şəkildə deməliyik".

## 15 İYULDA TÜRKİYƏDƏ BAŞ VERƏN ÇEVRİLİŞ CƏHDİNİN NƏTİCƏLƏRİ

**Türkiyədə 15 iyul 2016-cı il tarixində ordu içərisində ABŞ-ın Pensilvaniya ştatında yaşayan Fətullah Gülənin rəhbəri olduğu Fətullahçı Terror Təşkilatına (FETÖ) bağlı bir qrup tərəfindən, Türk Silahlı Qüvvələri içərisindəki mənsublarının liderliyi ilə hərbi çevrilişə cəhd edilmişdir. Bu günə qədər, 240 nəfərin həyatını itirməsinə səbəb olan çevriliş cəhdi, millətimizin bəşəriyyətə nümunə olacaq müqaviməti və dövlətin digər ünsürlərinin qarşı çıxması ilə uğursuzluğa düçar edilmişdir.**

FETÖ NƏDİR? Orta məktəbin ibtidai sinif məzunu və təqaüddə olan Fətullah Gülən adlı din xadiminin başında durduğu FETÖ 1970-ci illərdə bu şəxsin azğın fikirləri ətrafında cəmləşən və adətən açdığı özəl məktəblər, kurslar, tələbə evləri və yataqxanaları kimi fəaliyyəti ilə ön plana çıxan bir dini qrup və hərəkat kimi meydana çıxmışdır. Qeyri-qanuni fəaliyyətini məxfiliklə həyata keçirirək milli və beynəlmiləl aləmdə sadəcə vətəndaş cəmiyyəti və təhsil fəaliyyəti icra etdiyi təsəvvürünü formalaşdırmağa çalışmaqdadır. Təşkilat üzvləri sevgi və tolerantlıq kimi mesajlarla özlərini demokratiya, dinlərarası dialoq, təhsil və sülh könüllüsü qismində təqdim etmə strategiyasına sahibdirlər. Ancaq, təşkilatlanmalarına baxdıqda Türkiyədə və digər ölkələrdə əsl kimliklərini gizlədərək çox fərqli adlar altında (sağ, sol, liberal, dindar) ordu, məhkəmə, təhlükəsizlik, kəşfiyyat və bürokratiya kimi dövlətlərin əsas nöqtələrinə yerləşirlər. Bu vəziyyət fəaliyyət göstərdikləri ölkələrdə özünü "Xidmət Hərəkatı" olaraq təqdim edən təşkilatın həqiqi məqsədini ortaya qoyur.

MƏQSƏDİ NƏDİR? Təşkilatlandığı ölkələrdə orta məktəb, ali təhsil və ya mədəniyyət mərkəzi, peşə quruluşu ya da QHT pərdəsi altında gizlicə strateji əhəmiyyətli qurumlara yerləşərək, dövləti ələ keçirməkdədirlər. Kiçik yaşlarından etibarən nəzarət altında tutaraq vacib mövqelərə gətirdiyi nümayəndələri vasitəsilə "kainat imamı" adlandırdıqları liderlərinin fikirləri əsasında dövlətləri, cəmiyyətləri, hətta dünyanı dizayn etməkdədirlər. Azğın dini inanışları ilə məqsədlərinə çatmaq üçün yalan, iftira, pusqu və qeyri-qanuni bütün fəaliyyətləri legitim hesab edirlər. Uzun illərə söykənən gizli təhsil və inandırma fəaliyyətləri ilə, bu mövzularda sıravi insanların dərk edə bilməyəcəyi bir peşəkarlıq qazanmışlar. Üzvləri məsihvari bir "seçilmişlik ruhu" və "sadiqlik hissi" içərisində cilddən cildə girə bilməkdə, lazım olarsa, ağır cinayət də daxil olmaqla hər cür qeyri-qanuni fəaliyyəti həyata keçirə bilməkdədirlər.

İNDİYƏ QƏDƏR NƏ ETDİ? Xüsusilə son 10 ildə, təşkilatın gizli məqsədinə sadiq hakim, prokuror və təhlükəsizlik orqanı işçiləri vasitəsilə, özlərinə mane gördükləri çox sayda hərbiçini, polisi, bürokratı, jurnalisti, elm adamını və yazıçını saxta dəlillər ilə ağır həbs cəzasına məhkum etdirmişlər. Beləliklə, dövlətin bütün mövqelərini ələ keçirmə məqsədi güdmüşlər. Sistemi ələ keçirmək üçün kifayət qədər güclü olduğunu hesab edən FETÖ, ilk çevriliş cəhdini 2012-ci ilin fevralında Türkiyə Kəşfiyyat Xidmətinin (MİT) rəhbəri Hakan Fidanın kürd məsələsinin həlli istiqamətində apardığı fəaliyyətlərini səbəb göstərərək etmişdir. Özünü sülhməramlı dini bir hərəkat kimi göstərən və tolerantlılıq, dialoq kimi məhfumlardan istifadə edən FETÖ, heç bir şəkildə adıçəkilən sahələr ilə kifayətlənməyərək təhlükəsizlik, məhkəmə və kəşfiyyat sahələrində öz kadrlarını yerləşdirməklə qanundan kənar fəaliyyətlərini icra etməkdədir.

15 İYULDA NƏ OLDU? 15 iyul 2016-cı il tarixində ordu içərisində təşkilatlanmış FETÖ hərbi təyyarələr, helikopter və tanklarla yeni bir qanlı və sərsəm çevrilişə cəhd etmişdir. Küçələrdə çevrilişə qarşı çıxan vətəndaşların üzərinə tankları sürmüşdür. Ankara və İstanbul şəhərlərində Prezident İqamətgahı, Parlament, təhlükəsizlik orqanları, digər dövlət qurumlarının binaları və çevrilişə qarşı çıxan insanları hərbi təyyarələr ilə bombalayan FETÖ prezident Rəcəb Tayyib Erdoğana da sui-qəsdə təşəbbüs etmişdir. Çevriliş cəhdi xalqın və dövlətin orqanlarının qarşı çıxması nəticəsində uğursuz olmuşdur. Çevriliş cəhdi zamanı 173 mülki şəxs, 62 polis və 5 hərbiçi öldürülmüşdür. Bundan əlavə, 1491 nəfər yaralanmışdır. Çevriliş cəhdi uğurlu olsaydı minlərlə günahsız insan həlak olar, demokratiya və azadlıq ortadan qaldırılar və Fətullah Gülənin azğın dini fikirləri əsasında hərbi bir diktatura qurulardı. Bu mürtəce çevriliş cəhdinə cəmiyyətin fərqli baxışlara malik bütün təbəqələri - siyasi partiyalar, həmkarlar təşkilatları, qeyri-hökumət təşkilatları, media və iş dünyası bütün gücü ilə qarşı çıxmışdır. Nəticədə, qanlı çevriliş cəhdinin qarşısı alınmış, dövlət qurumları böyük ölçüdə normal fəaliyyətinə geri dönmüşdür.

FETÖ SADƏCƏ TÜRKİYƏNİMİ TƏHDİD EDİR? Son çevriliş cəhdində göründüyü kimi, azğın bir dini inanışa arxasını söykəyərək hərbi diktatura qurmaq istəyən FETÖ, məqsədinə çatmaq üçün heç bir sərhəd, prinsip və qayda tanımır. 15 iyuldakı cəhddə silahsız və günahsız insanları öldürməyə istiqamətlənmiş hücumlar olmuşdur. Dialoq və tolerantlıq kimi məhfumlardan istifadə edən təşkilat, hətta QHT və ya bu hərəkatla heç bir əlaqəsi olmayan digər sahələrdə də strateji cəhətdən təşkilatlanır. Uzun illər boyu aldıqları təhsil və öyrəndikləri metodlarla özlərini gizlədir və etdiklərinə heç bir şəkildə sahiblənmirlər. Təşkilat, azğın dini görüşü, gizli gündəliyi, məqsədə çatmaq üçün hər cür metodu istifadə etməsi ilə sadəcə Türkiyə üçün deyil, fəaliyyət göstərdiyi bütün dövlətlər və bəşəriyyət üçün bir təhdiddir. Təşkilat, fəaliyyət göstərdiyi ölkələrdə, Türkiyədə daha əvvəl sahib olduğu strategiyaya analoji bir yol tutmaqda, kütlələrə şirin görünən fəaliyyətlər həyata keçirməkdədir.

NƏ EDİLMƏLİDİR? Dini dəyərləri öz azğın inancları üçün istifadə edən FETÖ, İŞİD və Boko Haram kimi təşkilatlarla bütün bəşəriyyət birlikdə mübarizə aparmalıdır. Xaricdəki vətəndaşlarımızın və soydaşlarımızın, demokratiyaya, milli iradəyə, insan hüquqlarına və azadlıqlarına hörmət edən bütün beynəlxalq qurumların və fərdlərin millətimizin şanlı müqavimətinə göstərəcəyi dəstək unudulmayacaqdır. Bununla əlaqədar insanlıqdan kənar bu qanlı çevriliş cəhdini lənətləyir, şəhid olan mülki vətəndaşlarımıza, polislərimizə və əsgərlərimizə rəhmət, yaralılarımıza şəfa diləyirik.

## ABS NƏDİR VƏ NECƏ İŞLƏYİR?



ABS sistemi (Anti-Lock Braking System) 1936-cı ildə inkişaf etdirilmiş və avtomobillərin manevrlərini və dayanma qabiliyyətlərini təmin etmək məqsədi ilə ortaya çıxmışdır. ABS sistemi avtomobilin dayanma qabiliyyətini artırır, həmçinin sürücüyə hakimiyyət qazandırır. ABS-nin ən üstün cəhəti sürücülərə ani tormozlama və nəzarətli tormozlama imkanı yaratmasıdır. Bunlara əlavə olaraq system avtomobilin idarəli olaraq istiqamətlənməsini təmin edir. ABS sistemi patent üzrə ilk olaraq Almaniyada alınmışdır.

ABS sistemi, avtomobillərdə təkərlərin çəkişmə itirdiyi hallarda və bağlanmağa məruz qaldığı hallarda, bütün təkərlərin dönüş sürətlərini qəbul edir və nəzarətli bir sürüş imkanı yaradır. ABS sistemi hər bir təkərin fırlanma sürətini electron sensorlar vasitəsilə qavrayır. Beləliklə, maşının çevrilməsi və ya yoldan çıxması təhlükələrinə qarşı tədbir görür.

Avtomobilin istifadə edilməsi əsnasında, sürücü ani olaraq əyləci basdıqda, elektron nəzarət məntəqəsi adı verilən ECU istifadə etdiyi siqnalları işə salır və avtomobilin tormoz təzyiqini nizamlayır. Təkərlərə tətbiq olunan müxtəlif əyləc təzyiqləri ilə təkərlərin bağlanmasının qarşısı alınmış olunur. Təkərlərin bağlanması hidravlik nəzarət birləşməsi (HCU) vasitəsilə əmrləri çatdırır.

ABS necə çalışır?

Avtomobilin hərəkəti zamanı əyləc pedalına sərt olaraq basıldıqda, ABS avtomatik olaraq dövrəyə girir. ABS etibarlı bir sürüş təmin etmək məqsədilə inkişaf etdirilmişdir. ABS ilə təkərlərə olunan əyləc təzyiqləri nizamlanır və təkərlərin yapışmasının qarşısı alınır. Bu şəkildə sürücü yol nəzarətini itirməmiş olar. Bütün bu məlumatları yekunlaşdırmaq lazım olsa, ABS avtomobilin 4 təkərinin əyləc təzyiqlərini bir-birindən müstəqil olaraq tənzimləyir. Bu sistemlə əyləclər, saniyənin 1/18-i qədər bir vaxtda qısa tutulmaya məruz qalır. Beləliklə, zərbəli olaraq tormozlama imkanı yaradılır, nəticə olaraq sürücülər istiqamət qabiliyyətlərini itirmirlər.

ABS-nin əsas məqsədinin, əyləc məsafəsini qısaltmaq olduğu güman edilir. Ancaq bu məlumat tam olaraq doğru deyil. Çünki ABS-nin əsl məqsədi, ani və sərt tormozlamalarda sürücünün sükan hakimiyyətini təmin etməkdir. Əlbəttə, avtomobilin əyləc məsafəsi də qısalır, ancaq əsas məqsəd bu deyil. 2-ci məqsəd əyləc məsafəsinin azaldılmasıdır. ABS vahiməyə düşmə hallarında istifadə edilən ani və sərt tormozlama hallarında, maşının təkərlərinin bağlanmasının qarşısını alır və sürücünün manevr qabiliyyətini artırır. ABS-li vasitələrdə dinamik sürtünmədən istifadə edilərək, ABS-si olmayan avtomobilə nisbətən daha qısa məsafədə dayanmaq imkanı təmin edilir.

Elsevər ƏHMƏDOV

## PARTİYALAR SEÇKİ KAPANİYASINA 4 667 091 LARİ XƏRCLƏYİBLƏR

Seçki kampaniyasının başlanmasından keçən ay yarım ərzində partiyalar tərəfindən ümumilikdə 4 667 091 lari xərclənib.

Partiyaların maliyyə fəaliyyətlərinin monitorinq xidmətinin məlumatına görə, partiyalar artıq iki dəfə xərclər barədə məlumat təqdim ediblər.

İyunun 8-dən iyulun 19-dək olan dövr ərzində "Gürcü Arzusu" 1 344 959 lari, "Xalq üçün Dövlət" 1 260 465 lari, "Vahid Milli Hərəkat" 391 070 lari, "Azad Demokratlar" 258 849 lari, "Vətənpərvərlər Alyansı" 255 426 lari, "Birləşmiş Demokratik Hərəkat" 221 731 lari, "Yeni Gürcüstan" 184 650 lari, "Yeni Siyasi Mərkəz – Qirçi" 131 482 lari, "Milli Forum" 117 573 lari, Mühafizəkarlar partiyası 64 646 lari, Respublika partiyası 61 725 lari, Leyboristlər partiyası 119 210 lari, "Yeni Sağlar" 727 lari, və "Sol Alyans" 507 lari pul xərcləyib.

Xərclərin böyük hissəsi reklamların yerləşdirilməsi, əmək haqlarının ödənilməsi və ezamiyyətlərə sərf olunub.

## TAMAR SANİKİDZE TƏHSİLİN KEYFƏYYƏTİNİN İNKİŞAFI ÜZRƏ MİLLİ MƏRKƏZƏ BAŞÇILIQ EDƏCƏK



Sabiq təhsil və elm naziri Tamar Sanikidze Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəzə rəhbərlik edəcək. Bu barədə Gürcüstanın təhsil və elm naziri Aleksandr Cecelava bəyan edib. Onun sözlərinə görə, keyfiyyətin idarə olunması təhsil nazirliyi üçün əsas istiqamətdir və nazir öz komandası ilə onu gücləndirmək niyyətindədir.

"Bizim, sizin və istənilən adamın əsas narazılığı keyfiyyətlə bağlıdır. Mən həmkarlarımla keyfiyyətin gücləndirilməsi istiqamətində məsləhətləşməyə başladım, keçmiş təhsil naziri Tamar Sanikidzedən nazirliyin idarələrindən biri olan Təhsilin İnkişafı Mərkəzinə başçılıq etməyi xahiş etdik və onun razılığını aldıq. Məmnunam ki, bir neçə gündən sonra o, bu təşkilata rəhbərlik edəcək, keyfiyyətin yüksəldilməsi nöqteyi-nəzərindən bunun yaxşı iş olmasına əminəm" – Cecelava bildirib.

Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəz 2010-cu ildə yaradılıb və təhsil proqramlarının akkreditasiya standartlarına uyğunluğunu müəyyənləşdirir. Mərkəzin məqsədi təhsilin keyfiyyətinin yüksəldilməsi üçün sistemli şəkildə özünü qiymətləndirmənin tətbiq edilməsini və keyfiyyətin təmin edilməsi mexanizmlərini müdafiə etməkdir.

## AVQUST MÜHARİBƏSİNDİN 8 İL ÖTÜR

Avqustun 8-də Rusiya-Gürcüstan müharibəsinin başlamasından 8 il keçir.

Məsələ ilə bağlı Marneuli Bələdiyyəsi Özünüidarəetməsinin rəhbərləri və əməkdaşları Gürcüstanın ərazi bütövlüyü uğrunda müharibədə həlak olmuş marneulili əsgərlərin abidəsi qarşısına əklil qoyraq, onların xatirəsini yad ediblər.



Müharibədə həlak olanların xatirəsinə hörmət əlaməti olaraq Marneuli Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə tədbir keçirildi. Tədbirdə Marneuli ərazisində yerləşən hərbi hissənin əsgərləri, müharibədə həlak olan qəhrəmanların ailə üzvləri və vətəndaşlar iştirak edirdilər.

Rusiya-Gürcüstan müharibəsində Marneulidən gedən əsgərlər və könüllülər də mübarizə aparıblar.

Təəssüf ki, bu qarşıdurmada marneulili 4 əsgər də həlak olub. Onlar bunlardır: Zaza Botsoidze, Qiorqi Tatuaşvili, Roman Zoidze, Qia Romelaşvili.

Qeyd etmək lazımdır ki, tədbirdə qəhrəman Zaza Botsoidzenin oğulları – Georgi və Saba Botsoidzelər Vətən uğrunda həlak olmuşlrın büstü qarşısında əsgər geyimində fəxri qaravulda dayandılar. Onlar atalarının xatirəsinə həsr olunmuş şerləri də dilə gətirdilər.

Avqust müharibəsin 8-ci ildönümü ilə əlaqədar müharibədə həlak olmuş əsgərlərin ailələrinə, Marneuli Bələdiyyəsi 500 lari məbləğində bir dəfəlik maddi yardım edib.

Özünüidarəetmənin qərarı ilə Abxaziya və Osetiya müharibələrində həlak olmuş qəhrəmanların ailələrinə də pul yardımı göstəriləcək.

Turac İBRAHİMOVA

## DÖVLƏT QİYMƏTLİ KAĞIZLARINI NECƏ ƏLDƏ ETMƏK OLAR?




Gürcüstan Milli Bankı maraqlanan şəxslərə dövlət qiymətli kağızlarını necə almaq barədə məlumat verib.

Milli Bankın bəyanatında bildirilir ki, dövlət qiymətli kağızlarını hüquqi və fiziki şəxslər kommersiya banklarından, birinci və ya ikinci bazardan əldə edə bilərlər. Bunun üçün ən yaxşı şərtlər təklif edən kommersiya bankına müraciət etmək lazımdır, yalnız bundan sonra qiymətli kağızlar hesabı açılır.

İlkin hərracda hamı iştirak edə bilər. Bunun üçün kommersiya bankına və ya broker şirkətinə müraciət etmək lazım gəlir. Kommersiya bankı müştərinin adından qiymətli kağızlar hərracına ərizə təqdim edir. Müraciətə müsbət cavab verildiyi təqdirdə qiymətli kağızlar birbaşa müştərinin hesabına keçirilir.

İlkin hərracda müştəri nominal dəyəri 1000 lari olan ən azı bir qiymətli kağız almalıdır.

Qiymətli kağızlarla bağlı tam məlumatı Milli Bankın və Gürcüstan Maliyyə Nazirliyinin saytlarından öyrənmək mümkündür.

## "VƏTƏNDAŞ BÜDCƏSİ" LAYİHƏSİ NƏZDİNDƏ LAYİHƏ YAZMA MARAFONU KEÇİRİLDİ

Marneuli Bələdiyyəsində "Vətəndaş Büdcəsi" çərçivəsində layihə yazma marafonu baş tutdu.

"Vətəndaş Büdcəsi" layihəsi çərçivəsində layihələrin qəbuluna iyulun 1-dən start verilib və iyulun 30-da layihələrin qəbuluna son verildi. İyulun 29-da isə layihə yazmaq istəyən, amma buna vaxt tapa bilməyən, yaxud yazma təcrubəsi olmayan vətəndaşlar layihə marafonunda iştirak edərək, öz ideyalarını kağız üzərinə köçürdülər. Vətəndaşlara bu işdə Marneulinin "Demokrat Qadınlar İttifaqı" yardımçı oldu. Vətəndaşlar layihə ilə bağl istənilən suala yerindəcə cavab ala bilirdilər.

Vətəndaş büdcəsi uzun prosesdir. O, vətəndaşların yerli büdcənin planlaşdırılması, xərclənməsi və hesablanmasında iştirak etməsini nəzərdə tutur. Vətəndaş büdcəsi vətəndaşların və yerli hakimiyyətin birgə əməkdaşlığı ilə layihələr həyata keçirilməsinə imkan yaradır.

Layihə çərçivəsində yerli özünüidarəetmə yerli büdcədən 1 500 000 lari ayırıb. Bu pul vətndaşların daxil etdikləri layihələrin həyata keçirilməsinə xərclənəcək.

Layihə Polşa Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən maliyyələşdirilən "Demokratiyaya Dəstək" proqramı çərçivəsində həyata keçirilir.

Layihənin həyata keçirilməsinə dəstək olan tərəfdaşlar: "Başqa Fəza"(Other Space Fundation") Polşa fondu, "Vahid Qafqaz", Beynəlxalq Həmrəylik Fondu, Marneuli Bələdiyyəsinin İcra Hakimiyyəti.

Turac İBRAHİMOVA

## DİLSİZ DUYĞULAR

Elə dillər var ki, onları anlamaq üçün nə həmin dili bilməyə, nə də bu işdə sizə yardımçı olan tərcüməçiyə ehtiyac var.Heç internetə, lüğətə, kitaba da gərək yoxdur. Deyim ki, bu dildə deyiləni başa düşmək üçün göz, qaş, ağız, qulaq kimi şeylər də artıqdır, ancaq gərəkdi qəribsəməyəsiniz. Bu sevgi dili, şəfqət dilidir. Heç zərrə qədər gümana, zənnə düşmədən yenə deyə bilərəm və mənimlə razılaşdığınıza əminəm. bu dil üçün şüurun, ağılın olmaması da böyük, aşılmaz əngəl deyil. Necə deyərlər, bu sadaladıqlarımız olsa da birdir, olmasa da... Sevginin dili çərçivələrə sığmayacaq qədər əngin və zəngindir.



Bu barədə məşhur "Teleqraf" qəzeti də yazıb. Yox, sevgi dilindən yox, Tbilisi heyvanxanasında bir neçə gün əvvəl doğulan və nadir növdən olan ağ şir balaları haqqında yazıb. Dünya mediasında paytaxtımızda dünyaya göz açan bu gözəl varlıqlar haqqında söhbətlər yayımlanıb. Bu haqda əvvəlcə eşitdim, sonra kiçik bir axtarış etdim, sən demə meşələrin kralı olan aslan körpəcələrini dünyanın gözündən hifz etmək üçün kameralardan gizləməyə çalışırmış. Biz də qırxı çıxmamış uşaqlarımızı hər şeydən hifz edirik. Lakin biz aslan deyilik, bəzi inanclar bizi buna vadar edir. Əminəm ki, aslanı düşündürən və əndişə duymasına səbəb olan kiminsə bədnəzəri deyil, onu hərəkət etdirən balasına olan sevgisidir. Bu dili isə dünyanın istənilən nöqtəsində, istənilən dilində danışan insan gördüyü mənzərə nəticəsində asanlıqla anlaya bilir.

Ancaq analıq və ona daxil olan bütün ümdə hisslər əlbəttə ki, insan üçün daha səciyyəvidir. Səciyyəvi olmalıdır. Yəni insan oğlu övladına daha düşkün olmalıdır. Bu paraleli etdiyim üçün, ümid edirəm ki, cəzalandırılmaram. Ancaq yazıqlar və əfsuslar olsun ki, başqa çarə görə bilmədim. Bu mövzuda yazmağıma səbəb isə qəfəsə qısdırılan şirlər və onların övlad sevgisi deyil, ətrafımızda olan analar və onların övladlarına olan sevgisizlikləri oldu. Az sonra analar sözünü dırnaq arasına salacam, qəribsəməmənizi xahiş edirəm.

Həyat şərtlərinin hər yerdə öncələrdən daha ağır olduğu və bunun da insanlarda əsəb pozğunluğunun yüzlərlə formasının yaranmasına nədən olduğunu hər birimiz yaxşı bilirik. Maddi vəziyyətinin necə olmasından, malından-mülkündən asılı olmayaraq hər kəsin vəziyyəti ən azı bir pillə aşağı enib. Bu da, insanlığının yetmiş faizi maddiyyatdan yoğrulub yapılanlar üçün heç də asan həzm ediləcək məsələ deyil. Bu da, insanların hisslərinin ölməsinə bir addım daha təkan verir. Hər sonun başqa başlanğıclara səbəb olduğunu da bilirik. Ölən hisslərin yerinə əlbəttə ki, başqaları doğulur. Sevgi yerinə qəzəb, mərhəmət əvəzinə kin-küdurət doğulur, böyüyür, qol-qanad açır. Bu gün "analar" dünyaya gətirdikləri kiçik insanlara sevgidən başqa hər şeyi aşılayırlar. Uşağa səni ortadan iki cırararam deyən "analar" görmüşəm, elə bil A4 kağızından-filandan bəhs edirlər. Qanına bələn deyir "ana" övladına... Heç şübhəsiz, dediyim qadınların heç biri övladlarını cırmaz, ən azından uşağın ata nənəsi onu cırılmışdan betər edər. Ana qarğışı balaya keçməz, süd qoymaz deyirlər. Bəs dilinə ana südü dəyməyənləri nə qoruyacaq? Sözüm ondadır ki, bu əsəbiyyət, anaların bu fəlsəfəsi uşaqların psixoloji durumuna ürəyin istəyən təsir göstərir. Yəni pis təsir. Yəni uşağın tərbiyəsini başdanca pozmağa səbəb olur, gələcəyini də təməlindən xarab betonla tökür.

Sonra, uzun illər sonra yon görüm nə ilə yonursan. İndi bu ərinə, qaynanasına, arzulayıb çata bilmədiyi həyatına acıq edən gəlinlər, bütün hirslərini uşaqlardan çıxmağa çalışıb, zəhərlərini onların üstünə qusurlar. Ad-soyadını ard-arda yazmaqdan aciz olanlar durub uşaq cırır, döyür, düşmən uşağıymış kimi davranır. Qaynana da haqlı olaraq deyir ki, sənin başını bəzəyib ərə vərəni ... Arxasını özünüz bilirsiniz, çox əziz oxucularım. Haqlıdır qaynana və komandası, tam obyektiv deyirəm, mən onların tərəfindəyəm. İmkan olsa şirin qabağına atasan bunları, göstərə adam cırmağı, qanına bələməyi... Ana olmaq dünyaya uşaq gətirməklə başlayır, ancaq bununla bitmir axı... İllər sonra isə, bu uşaqlar, daha doğrusu sevgidən kəm böyümüş kişilər və qadınlar sevgi dilənən qocalara haqlı olaraq biganə yanaşırlar. Ana sevgisizliyindən uşaqlığı öldürülən balalar, elə o anaların qocalığını saymamazlıqla, vecərinə almamaqla öldürəcəklər.

Xəbərin olsun, gənc qadın, əlinə qəzet alacaq olmasan da dediklərimi hardansa eşit, gücüm olsa yuxuna girərdim. Sənə bir deyəcəyim var, illər sonra həyatın acısını indi canından çıxardığın körpələr üçün əli uzalı qalacaqsan, qırx ildə bir eldən ar edib axtarıb halını tutacaqlar, bəzisi heç yaşadığın şəhərə ayaq basmayacaq, bəzisinin sənədləri cənazənə çatmaq üçün yetərli olmayacaq... Uşaqların gözündə yaş sonsuz deyil... İmkan verin biraz yasınızda ağlamaları üçün qalsın... Zamansız qurutmayın... İnanın ki, o duyğuları da tərif etməyə ehtiyac qalmayacaq... O səhnələr də dünyanın hər yerində lal-kar dərk ediləcək... Tərcüməsiz, izahsız, açıqlamasız... üzüləcəksiniz...

Afayət AFİQ

## MÜHARİBƏ DÖVRÜNDƏ SURİYADA 292 817 ADAM HƏLAK OLUB

Suriyada hərbi münaqişə başlayandan bəri 292 817 nəfər həlak olub. Qərb KİV-nin məlumatına görə, Suriyada insan hüquqlarına əməl olunması üzrə monitorinq mərkəzinin yaydığı məlumatlarda bu barədə söhbət açılıb.

Həlak olanların 84 472 nəfəri mülki şəxslərdir ki, onların da təxminən 15 mini uşaq, 9 mindən çoxu isə qadınlardır. Mərkəzin məlumatına görə, Əsəd rejimi əleyhdarlarının itkilərinə gəlincə, döyüşlər zamanı 50 548 nəfər müxalif döyüşçü, o cümlədən də kürd, habelə 49 547 radikal islamçı həlak olub.

2011-ci ilin martından bu günədək hökumətə yaxın qüvvələr, o cümlədən də Əsədi müdafiə edən livanlı döyüşçülər arasında itki 104 656 nəfər təşkil edib.

## KİM YATMIŞ, KİM OYAQ?

Yuxuların əksəriyyəti şirin olur, əsasən də soyuq havalarda. İnsan şirin yuxuya o qədər alışır və şirin yuxu onu o qədər məst edir ki, axırda ondan asılı olur və gün ərzində də yuxuya olan bağlılığını göstərərək, ərincəkləşir, beləliklə bir çox şeydən soyuyur və bir də görür həyatı o qədər yeknəsəkləşib ki, "siyah-bəyaz" həyatının dəyişməsi üçün möcüzə gözləməyə başlayıb.

Ümumiyyətlə, keçmiş etibarilə, biz yuxulara çox bağlıyıq, yuxuları yozaraq gələcəkdən ərməğan umuruq. Belə olan halda isə məsələ o yerə gəlib çatır ki, daşın altına əlimizi qoymaqdansa, oturub göylərə baxmağı və qeyri-təbii hadisələrin olacağına ümid bəsləməyi tərcih edirik.

İmmanuel Kant orta yaşlarında – "mən bu zamana qədər yuxulayırmışam, - deyirdi –David Hume mənim gözlərimi açdı", çünki alışqanlıq halına gəlmiş bir işi görməsi insanın ayıq olduğuna dəlalət deyil; nəfsi qeyri-şüuri aldığımız kimi, bir çox işi avtomatikləşdirdiyimizə görə, misal üçün, yağış yağarkən yağış damcılarının şırıltısının qəşəng melodiyasını, bayırda cəh-cəh ötən quşların nəğməsini, səhər erkən oyananda tam sakitlikdə Dünyanın öz ətrafında və günəşin ətrafında fırlanma cəldliyindən yaranan kosmik sürtünmənin məzəli vıyıltısını eşitməməyə, balaca uşaqlar oyun oynayarkən onların həyəcanınının və sərbəstliyinin gözəl mənzərəsini görməməyə və bəlkə də minlərlə bunu kimi gözəllikdən xəbərimiz olmadan yaşamağa başlayırıq.

"4+1" proqramı ilə İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinə qəbul olduğumun ilk ili, gürcü dili üzrə hazırlıq kursunda oxuyarkən, dörd nəfər tələbə birləşərək kirayə ev tutmuşduq. Səhər dərsə gecikməmək üçün bir saat əvvələ zəngli saatımı qururdum və səhər zəngli saat çalan kimi şimşək təki ayağa qalxırdım, lakin otaq yoldaşlarım tay gözlərini aralayaraq mənə baxır və yenə yatırdılar, hərdənbir də mənə deyirdilər "sən insansan, ya nəsən?", çünki mürgüləmək xasiyyətim yoxdur və yuxudan ayılan kimi zehnim o saat öz yerini alır. Mən mətbəxə düşüb çayı qazın üstünə qoyurdum, təbiəti, külək varsa küləyi, yağış varsa yağışı, günəş varsa günəşi dinləyirdim, ağlımı rahat buraxmayan fikirlərim varsa qeydlər aparırdım, çox vaxt idman edirdim və bir də görürdüm otaq yoldaşlarım divarlarla toqquşa-toqquşa, stullara dəyə-dəyə, gözlərini ovxalaya-ovxalaya bir-bir gəlirlər. Ona görə də möcüzə onları heç tanımadı, hərəsi bir yana dağıldı, təhsillərinə davam edə bilmədilər, kimisi bacarmadı, kimisi alverə başladı, kimisi toylarda "ionika" çalmağa getdi, amma mən qalaraq döyüşdüm, çabaladım və onların qazana biləcəyindən heç də az olmayan məbləğlərdə təqaüdlər aldım, lahiyələrdə iştirak elədim, qısacası möcüzə olmasını gözləmədim, möcüzəni özüm yaratdım. Dünyada öz möcüzələrini yaratmış saysız insan var, bir çoxlarını da şəxsən tanıyırıq və öz möcüzəni yaratmağın necə də möhtəşəm bir duyğu olduğunu, əgər kor deyiliksə, öz gözlərimizlə görə bilirik.

Bundan başqa, ayaq üstə mürgüləmək ictimai baxımdan da heç faydalı deyil, çünki həmişə qarnı mütləq ac olan bir cırtdan oyaq qalaraq mürgüləyən kəsi sümürməkdən əsla çəkinməyəcəkdir; "Tanrı bizi bəstəboy cırtdanların qəzəbindən qorusun".

Statistikaya görə, həyatımızın ortalama yarısı yatmağa, geridə qalan hissəsinin yarısını isə gündəlik təkrarlara çevrilmiş şeylərə xərcləyirik: yemək-içməyə, çimməyə, tualetə, yol getməyə və s. Yerdə qalan hissə o qədər azdır ki, dolu-dolu yaşamaq üçün anlağımızı və şüurumuzu maksimum işlətməliyik, əks təqdirdə var olmaqla, olmamağın arasındakı fərq çökür, məna və mənasızlığın arasında sıxışıb qalırsan və saralmış payız otunun küləyin əsdiyi tərəfə əyilməsindən heç bir fərqin olmur.

Tomas Cefferson deyirdi: "Erkən qalxan çox yol alar". Üstəgəl, həyat elə bir fenomendir ki, onu, insani baxımdan, nə təkcə ağlındakı nəzəriyyələrlə yaşaya bilməzsən, nə də təkcə həyatın öz-özlüyündəki halı ilə keçinə bilməzsən, çünki, birinci halda insan sadəcə ağıldan, yəni nəzəriyyədən ibarət olur, ikinci halda isə heyvandan heç bir fərqi qalmır, odur ki, möcüzələr yaradan gəlmiş-keçmiş hər bir böyük insan bu ikisinin mütləq bir yerdə olmasını deyir, eyni atomun mərkəzindəki müsbət yüklü nüvə və tamamlayıcı rolunu oynayaraq onun ətrafında fırlanan mənfi yüklü elektronlar kimi. Qədim yunan filosofu Herakl məhz elə həyatdakı hər şeyin belə zidd şeylərin birlikdəliyindən yarandığına inanırdı, deməli, sadəcə nəzəri ağlımızı inkişaf etdirməklə və ya sadəcə vital (vitalizm – həyat prosesinin guya orqanizmdə olan fövqitəbii "həyati qüvvədən" asılı olduğunu iddia edən idealist cərəyan – red. qeydi.) yönümüzü gücləndirməklə iki qarşı qüvvəni işə salmırıq və beləliklə təktərəfli, yarımçıq bir varlığa çevrilirik, beləliklə həyatın bizə bəxş edə biləcəyi saysız gözəlliklərdən məhrum qalırıq.

Başqa nə qaldı? Hə-ə, Kim yatmış, kim oyaq?

KAMURAN

## İMKANLI AİLƏLƏRİN UŞAQLARI DƏRSLİKLƏRİ VƏ BİLGİSAYARLARI ÖZLƏRİ ALMALI OLACAQLAR

İmkanlı ailələrin uşaqlarına dərsliklər və bilgisayarlar verilməyə bilər. Yeni təşəbbüs barədə təhsil və elm naziri Aleksandr Cecelava ictimaiyyətə müracətində bildirib.

Nazirin məlumatına görə, bu qayda cari ildə tətbiq olunmayacaq, lakin bununla belə nazir gələn il belə bir imkanın olacağına ümid bəslədiyini vurğulayıb.

"Mən gələcək illərdə ola bilsin ki, imkanlı ailələrin uşaqlarına məktəb dərslikləri və bilgisayarlarla kömək etməyəcəyimizlə bağlı təşəbbüslə çıxış edirəm. Biz əmlak bəyannaməsinə əsaslanaraq, bunu 40 000 lari ilə ifadə etmişik… Bu qayda cari ildə tətbiq olunmayacaq, guman edirəm ki, gələn ildən bizim belə imkanımız olacaq" – Aleksandr Cecelava bəyan edib.

## MARNEULİDƏ GÜRCÜSTAN-AVRPA İTTİFAQI MÜNASİBƏTLƏRİNƏ DAİR DISKUSSİYA BAŞ TUTDU

Marneuli Bələdiyyəsinin İcra Hakimiyyətində Levan Mikeladze adına fondun təşkilatçılığı ilə Kvemo Kartli bölgə mətbuatı, qeyri-hökumət təşkilatları və yerli bələdiyyənin əməkdaşları üçün dəyirmi masa-diskussiyası keçirildi. Görüşün müzakirə mövzuları Gürcüstan-Avropa İttifaqı münasibətləri, vizanın sadələşdirilməsi, asossiasiya müqaviləsi, dərin və hərtərəfli azad ticarət razılaşması (DCFTA) imkanları və uğur nümunələrinə dair idi.

Görüşü Gürcüstanın iqtisadiyyat nazirliyinin nümayəndəsi xanım Tea Qunculia, mətbuat mütəxəssisi cənab İrakli Tabliaşvili və "Avropa Gürcüstan Naminə" təşkilatının nümayəndəsi cənab Zurab Modebadze idarə edirdilər.

## QORABİŞİRƏNİN YAZDIRDIĞI MƏTLƏBLƏR

**Avqustun canyaxan istilərində adamların ora-bura vurnuxmaları belə kənardan baxana yorucu təsir bağışlayır. Elə bu yazını yazarkən, mənim halımı gözünüzün qarşısında canlandırsanız, məncə, kifayət edər. Hətta bilgisayarımın düymələrini də çətinliklə və bəlkə də ərincəkliklə basıram. Nədən ki, qorabişirəninki istirahətdir, dincəlməkdir, sərin bir yerə çəkilməkdir. Bunu bilməyən də yoxdur. Amma bu məqamda düşünürəm ki, mənim yazdıqlarım kimlərə qarşısa insafsızlıqdan özgə bir şey də deyil. O üzdən ki, oğru yadına daş salıram, dünyada istirahət deyilən bir zadın olmasını dübarə xatırlatmaqla çoxlarının kefinə bir xörəklik soğan doğrayıram. Soğan demiş, soğan toxumunun qiyməti də bu il yaman bahadır. Bu isə üzümüzə gələn qış soğanın bahalığına bir işarədir.**



Söhbət ki, bu yerə gəldi, sizə bir alıb-satmaq gapı eləmək istəyirəm. Bu dünyanın bir bazar meydanı olmasını da, Allaha şükür, hamımız bilirik. Hamımız orasını da bilirik ki, bu dünyada hər şeyi, lap ağlınıza gəlməyən nəsnələri də almaq da olar, satmaq da. Kimin nəyi var onu satır, hallı halına görə davranır. Deyək ki, kənd adamı göy-göyərtisini dəyər-dəyməzinə satıb bir çətən külfətini yarı ac, yarı tox dolandırmaq üçün üç-beş qəpik qazanır, fəhlə iş tapsa qolunun gücüylə ailəsinə bir tikə ruzi aparmağa cəhd edir. Ya elə götürək həkimi. Həkim də xəstəsinə bir gəlir qaynağı kimi baxmaqda haqlı deyilmi? Xəstəliyin xəstə üçün neçəyə başa gəlməsini həkim düşünməlidirmi, düşünməməlidirmi? Bu tamamilə başqa məsələdir. Və ya bank işçisinin hərəkətinə baxaq. Bankın pulu var, sənin yoxdur. Burada sənin pulsuzluğuyun və pulsuzluqdan yana hansı zülmlər çəkdiyinin bank üçün bir isti-soyuğu olmaya gərək ki? Məsələn, bankın niyə pulu var, mənim yoxdur sualını pulsuz olduğundan sən qaldıra bilərsən, daha bank yox. Bank pulunu satmaq istəyir, müştərisi də kifayət qədərdir, daha buna pulumuz olmadığına görə biz niyə paxıllıq etməliyik ki? Bir də deməyiblərmi ki, kasıbın peşəsi varlının pulunu hesablamaqdır, bizim banklara qarşı tutduğumuz mövqe də belədir. Bankı qoyaq bir yana. Çalış öz pulun olsun, banka da ehtiyac qalmasın.

Müəllim də belədir, molla da, alim də, qəzetçi də, lap elə şair də.

İndi neynəmək olar ki, müəllimin təhsil bazarında satdığı bilik çox ucuzdur. Hələ şükürlər olsun ki, ucuz da olsa müştərisi var. Allah eləməmiş elə də ola bilər ki, müəllimin satdığının üzünə baxan da tapılmaya. Həm də bazarına baxır. Baxır sən hansı bazarda bilik satırsan və gərək biliyi də "müştəri döyən" yerdə satasan ki, qazancın da, bir qazanc ola.

Mollanın da öz ailəsi var, öz dərdi-azarı var. Ay molla belə elədi, elə elədi, bir ölünün dəfn-kəfən işləmlərinə bu qədər pul aldı deməklə, cənablar, nə demək istəyirsiniz? Yəni molla işi-ni-gücünü buraxıb sizin ölünüzləmi oynamalıdır? Və ya molla o qədərmi ağılsız olmalıdır ki, evdə əhli-əyalını ac buraxıb, sizin ölünüzün nazını çəksin. Belə düşünürsünüzsə mən sizin fikrinizi bölüşmürəm və çəkinmədən deyirəm ki, gedin ağlınıza dua yazdırın. Deyəcəksiniz yenə bizi mollanın yanına göndərirsən. O üzdən fikrimi dəyişirəm, məsləhət görürəm ki, bir ağıl həkiminin yanına təşrif buyurun.

Alim alimliyi təkcə ad-san qazanmaq üçünmü özünə məslək seçir, yoxsa bunun bir ayrıca özəlliyi də var? Bəli, ola bilər ki, bir adam elmi araşdırmalar aparmaqdan xoşlansın, ləzzət alsın. Amma düşünək ki, bu adamın ailəsi var, yeməyi-içməyi, geyməyi, toya-vaya getməyi var, həmin an bazar məsələsi ortaya çıxır və bizim alimimiz də zorən də olsa bütün bu ehtiyaclarını qarşılamaq üçün araşdırmasını satmalıdır. Burada da məsələ bəxtə bəxtdir, yəni elə alim olar ki, onun araşdırması bir ətək pula gedər, elə alim də olar məhsulunun üzünə tüpürən də olmaz, qalar yana-yana.

Qəzetçi də eyni günlü, eyni saatlıdır. Kimi sevdiyindən bu peşənin qulpundan yapışır, kimi ad-san üçün, kimi də pul-para üçün. Burada da bazar məsələsi önəmlidir. Baxır sən hansı məmləkətdə qəzet buraxırsan, televiziya verlişləri hazırlayırsan, məhsulunu kimə satmaq istəyirsən. Elə bazar tapa bilərsən ki, pula pul deməzəsən, adın-sanın da bir artıq. Elə bazara da düşərsən ki, sənin məhsulun su qiymətinə də satılmaz. Ancaq burada bir incə məqamı da vurğulamadan keçmək istəmirəm. Ola bilər sən elə üz sahibisən ki, getdiyin yerdən nəsə qopartmadan ayrılmağı özünə sığışdırmırsan, bax, onda sən çalıbsan, çörəyin olacaq. Olacaq, amma haramını-halalını deyə bilməyəm.

Şairin işi isə bir Allaha qalıb. Nədən ki, şairin şeir bazarı elə dədə-babadan kasad olub. Əli şah ətəyində olanlar dunya malına doyub, süd gölündə üzüblər, şeirdən guppuldadıb qumaşa bürünüblər. Yox, bu yöntəmi bacarmadısa, şair lələnin işi fırıqdır. Ya gərək Hadi kimi yazdıqlarını dosta-tanışa satıb başını girələyə, ya da Füzuli kimi həsrətlə doqquz axçanın yollarına göz dikə, o da ya gələ, ya gəlməyə.

**...deyəsən, qorabişirənin istiləri mənə çox mətləblərdən yazdırdı, bir belə uzunçuluq edib mən də sizlərə baş ağrısı verdim...**

A. MUXTAROĞLU

# PİKASSO ƏYRİQARDA

## (80x60)

**Süsən-Sünbül tərəflərdə buna mənim impressionizmim – ovqatdakı əlahiddə, müstəsna cəhətlər – deyənlər də var, ekspressionizmim – gözdən çox ağıla (və ağıza) aid olan – deyənlər də var. Hələ ekzistensializmi, sentimentalizmi, sürrealizmi də demirəm.**

**Amma mən həyatımızı illərlə ölçməyimizə rəğmən, bütün hallarda hesab edirəm ki, bir halda ömür – doğrudan da aldığımız nəfəslərin sayıdır, onda, məsələn, niyə İspaniyalının nəfəsi arada-sırada İlməzlidən gəlməsin? Niyə Əyriqarda Karakaslının nəfəsi duyulmasın? Zəncanın Ərzincanda, Dərbəndin Səmərqənddə, Misirin Çində, Gəncənin Göyçədə, Tiflisin Parisdə hiss olunan nəfəsləri də bir ayrı... O nəfəsləri Yaradandan özgə kim kəsə bilər?**



...Mən rəssam Rizvan İsmayılın nəfəsinin-səsinin Tiflisdə parlamentin Milli kitabxanasının sərgi salonundan, İstanbulda "Cəfərilər dərnəyi"ndən, Bakıda Səttar Bəhlulzadə adına Mərkəzi sərgi salonundan, Moskvada – Manejdən, Parisdə – Luvrdan gəldiyini Sınıq körpünün bəri üzündə, Əyriqarın ətəklərində duyuram. Məsələ burasındadır ki, Rizvan İsmayılın Tiflis, Paris, Moskva, Bakı, İstanbul tərəflərindən dolayı, bir də bir Əyriqar tərəfi var ki, bu Əyriqar tərəfində də ancaq Rizvana məxsus bir səmimiyyət və sadəlik mövcuddur.

Ta əzəldən də dediyim kimi, dünya – Vahid Vəhdət dünyası olduğu səbəbindən və uzaq nəfəslər yaxında hiss olunsun deyə, üstəlik də tarixin toz-tozanaq təkərləri hərdən-birdən uçqar deyilən yerlərdən, yəni biz tərəflərdən də keçsin deyə qayimməqam qələmin xəyal gücünün hesabına arada-sırada Sokratı, Ərəstunu (Aristoteli), Don Kixotu, Servantesi, Viktor Hüqonu, Məhəmməd Əlini Əyriqara gətirmişəm: axı bizim dağların azadlıq havasından çətin olar! Dahiləri yaxınında duymaq, onlarla baş-başa, çiyin-çiyinə, ürək-ürəyə addımlamaq nəyə desən dəyməzmi! Onları kopyalamaq, onlardan oğurlamaq yox, sadəcə olaraq onların ancaq insani olan, ancaq bəşəri olan nəfəsi önəmlidir.

Amma – əlbəttə, mənə görə – Əyriqara özü də bir rəssam olaraq ilk dəfə məşhur rəssam "dəvət edən", gətirən məhz Rizvan İsmayıl olub. Etiraf edim ki, Əyriqar tərəflərdə alim də tanınırdı, alimnüma da, şair də, yazıçı da, siyasətçi də, amma rəssam bir elə tanınmırdı. Ona görə yox ki, bu sənət buralarda qanılmır, əksinə, eynən bəzi Bakı kəndlərinin uşaqları demiş, bu sənət – buralarda "alayı", ayrı... qeyri-adi bir sənətdir! Yəni təxminən adiliklərdəki qeyri-adilikləri görmək bacarığı, bəsirəti olduğutək...

Amma buraların bir dilli-dilavər Süsən-Sünbül dili də var və əgər Süsən-Sünbül dili ilə demək gərəksə, deyim: buralarda alimdən, alimnümadan, siyasətçidən, donosbazdan, şairdən saatlarla, hətta günlərlə bıdır-bıdır ötənlər rəssamlardan – olsun Tahir Salahov, olsun Sakit Məmmədov, Levan Mosiaşvili, Vinsent van Qoq, Salvador Dali, ən bahalı incəsənət nümunələrindən olan "Qışqırıq" tablosunun (119,9 milyona satılıb) müəllifi Edvard Munk və sairə – söz düşəntək, eynən ibadətin başlanğıcı olan sakitliyə bənzər bir sakitlik yaranır.

Müxtəsəri, kol da gərək sən girən kol ola!..

...Rizvan Əyriqara Pikassonu gətirdi: kasıb vaxtlarında odun əvəzinə rəsmlərini doğramalı olan, kabarelərə-qəlyənaltılara bircə dəfə yemək yeməyi müqabilində bir rəsm əsəri bağışlayan, kabare sahibinin 20 dollara satdığı əsərinin 2004-cü ildə 105 milyon dollara satıldığı Pikasso!

Rizvanın əsərlərinin biri "Pikasso iş başında" adlanır. Burada Pikasso yaradıcılığının "mavi" və "çəhrayı" dövrlərindən nə qədər iz var, əhval-ruhiyyənin, nəfəsin-səsin ötürülməsindən rənglər nə danışır, məchulla məlumun sərhədləri haralardan keçir, "kubistik kriptoqrafiya"lar-şifrlər nə deyirsə – bunları mütəxəssislər və təbii ki, müəllif olaraq Rizvan daha yaxşı bilər. Mənim üçün ən vacibi Pikassonun Əyriqarla, şəxsən Rizvan İsmayılla vəhdət vilayət olmağı, rayihəli və reyhanəli rənglərə batıb-çıxmağıdır. Onu ifrat formalistlikdə günahlandıranlara gülən dağları öz gözlərimlə görmüşəm...

...Rizvanla dünən görüşdüm, bu payızın oktyabrına planlanan Luvr səfəri ilə bağlı da danışdı. Onun arzuları o qədər saf, o qədər həzin və gülərüz görükür ki, sanki Pikassonun "Sülh göyərçini"ni və "Şar üzərində qızcığaz"ını görürəm.

Sonra Rizvanın gözlərinin dikildiyi səmtə baxıram; küçədən dərdin əyib arazbarı qatladığı, amma başucalığı da buludlarda bərəkət bələyən qadın keçir.

...Pikasso anasının soyadını daşıyırdı və bu unudulmaz rəssama görə, dərdli adam (bəlkə dərdli qadın) daha səmimi olurmuş...

### QƏRBLƏ ŞƏRQİN DİALOQU... PİKASSO VƏ MİRCAVAD

(lessirovka)

Məşhur ingilis yazıçısı R.Kiplinqin sözləri var: deyir ki, Qərb – Qərbdir, Şərq də – Şərq, onların yolları heç zaman kəsişməz, onlar ancaq uca Yaradanın dərgahında görüşə bilərlər: özü də ancaq dəhşətli Məhşər günü!..

Əlbəttə, bu pessimist-bədbin notları bir kənara qoysaq belə, görərik ki, milli, internasional, hətta trans-mədəniyyətlər mövcudluğunda, qaynayıb-daşan müasir qloballaşmada Şərqlə Qərbin bütün yaxınlaşmalarına, bəzi sahələrdə çöl-düz çulğaşmağına rəğmən, özü də xoş qarşılaşmalar və qarşılıqlı nüfuz etmələr fonunda, aralarındakı təzadlar da arazbarı az deyil. Hətta futurologiya – bu gələcək haqqında elmin Qərblə Şərqin rayihəli rabitələri ilə bağlı nikbin proqnozları arasında da könül sındıran bəzi mağmın məqamlar var.

Amma ümid həmişə və hər yerdə qaldığı yeri sonuncu tərk etdiyindən mədəniyyət daşıyıcısı-fədaisi olaraq rəssam Rizvan İsmayıl da ümid edir ki, üzərlərinə mühüm böyük məsuliyyətlər düşən Qərblə Şərqin dialoqu, ülvi ünsiyyəti – baş tutmaq bir yana – əbədilikdir: Şərq də, Qərb də Günəş və Ay kimi məcburdurlar! Hər gün yanmaq, hər gün Yolda olmaq, hər gün səhəri gözlətmək... Çünki bu yeganəmiz Yer üzündə, bu, əslində Vahid Vəhdət dünyası olan dünyamızda yaşadığımız dialoqun qeyri alternativi yoxdur!

Rizvanın "Qərblə Şərqin dialoqu... Pikasso ilə Mircavad" adlı əsərində dadlı keyfiyyət təkcə ondan ibarət deyil ki, Qərb-Pikasso ilə Şərq-Mircavad (Cavad Mircavadov) səmimi könül söhbəti edirlər. Kamil sənətkarlar, tanınmış rəssamlar üçün bu onsuz da təbii, problemsiz haldır. Burada təsadüfi cizgi, yabançı fon da yoxdur: çünki vaqif adam olaraq Pikasso – Allahın altında hamıya yer olmağına rəğmən – gedib alverini arada-sırada möhtəkirlik üstə quran kabareçini deyil, Mircavadı tapmalıydı, tapdı da! Amma şəxsən mənim üçün ən önəmlisi, Rizvanın tarixə, tarixçəyə qatılmaq anı kimi məhz Pikassonu və Mircavadı özünə ünvan götürməyidir!

Rəssam olmasam da Rizvanın əsərinə baxanda Mircavadın vaxtilə Leninqradda (indi Sankt-Peterburq) Dövlət Ermitajında fəhlə kimi çalışmağından tutmuş Kopenhagen – Moskva qatarında vəfat etməyinə qədər görürəm.

Rizvanın əsərində Pikasso ilə Mircavad rəssamlıqdan, rəsmlərdən dolayı, incəsənət terapiyasından, müalicəvi rəsmlərdən – mərəzi olan üçün rənglərin, rəsmlərin sehrkar təbibə necə, hansı ürbənd üsullarla çevrilə bilmək qabiliyyətindən dolayı, çox şeylərdən danışa bilərdilər: məsələn, Pikassonun Malaqasından və Parisindən, intihar edən dostu Kasagemasdan, Mircavadın Bakısından və Leninqradından, göylərin intəhasızlığından, müasir transplantasiyalardan...

Amma bu yerdə, Rizvana görə, məgər Pikasso Malaqalı olduğu qədər, həm də Bakılı deyilmi? Yaxud Mircavad Bakılı olduğu boyda da Parisli deyilmi?

İndi sizə Mircavadın bir zamanlar yazdığı oxrantılı sətirləri oxuyuram: "Mən Azərbaycanda doğulmuşam. Lakin yaradıcılığımla Qolfstrimlə Sakit okeandan, Eskimoslar torpağı ilə Afrika qitəsindən gələn küləklərin qovuşduğu yerə ucalmışam".

Hər hansı şərhə ehtiyac varmı?

Şəxsən mən bundan səmimi, bundan ötə və bundan dostanə dialoq tanımıram!

Budur – misilləmə misal üçün – Başkeçiddə, Əyriqarda yaşaya-yaşaya Stokholmun, ya da Madridin bir parçası, bir zərrəbin zərrəsi ola bilmək! Ya da əksinə, Sivasda məskunlaşdığın halda, arada-sırada Şiraz tərəflərdə qeydiyyata – əlbəttə, günortaüstü güdükçü gömrükxanaların gülpərəst (hərdən də akvarelpərəst) gözlərindən iraq – düşə bilmək bacarığı... Bunlar öz yadigar və yasəminli yerlərində...

**...Təki gün o gün olsun ki, Qərblə Şərq də eynən Pikasso, Mircavad və Rizvan misallı, uzlaşa, anlaşa, qovuşa bilsinlər...**

İBRAHİMXƏLİL

## ARTIQ ÖZ SOYADINA BABA VƏ YA NƏNƏNİN SOYADINI ƏLAVƏ EDƏ BİLƏRSƏN

Gürcüstan Konstitusiya Məhkəməsi vətəndaşlara nənə və babanın soyadından istifadə etməyi qadağan edən normanı qanunsuz hesab edib.

Nənəsinin soyadını öz familiyasına əlavə edə bilməyən vətəndaş Nuqzar Cakeli Konstitusiya Məhkəməsinə iddia ilə müraciət edib. "Vətəndaşlıq aktları haqqında" qanun normaları gürcü ənənələri ilə şərtlənir. Gürcüstanda ikili soyad yalnız qadın ərinin və ya valideynlərinin soyadını özününkü ilə birləşdirdikdə mümkündür.

Parlament Konstitusiya Məhkəməsindən Cakelinin iddiasını təmin etməməyi xahiş edib. Belə ki, "bu, ailə birliyi və seçilmiş soyad arasında əlaqəni əks etdirməyə bilər, cəmiyyətdə çaşqınlıq yaradar".

Lakin Konstitusiya Məhkəməsi parlamentin bu xahişini nəzərə almamışdır.

Gürcüstan Konstitusiyasına əsasən, məhkəmənin qərarının dərc olunmasından sonra mübahisəli məsələ ləğv olunmuş və indi istənilən vətəndaş babasının və ya nənəsinin soyadını öz soyadına əlavə edə bilər.

## KÜÇƏ UŞAQLARI ŞƏXSİYYƏT VƏSİQƏSİ ALACAQLAR

Küçədə yaşayan və ya işləyən uşaqlara sənəd verilməsi sadələşdirilir. Əmək, səhiyyə və sosial müdafiə naziri David Sergeyenko jurnalistlərə küçədə yaşayan uşaqların dövlətin öz vətəndaşlarına verdiyi şəxsiyyət vəsiqəsini və bütün rifahı ala biləcəklərini bəyan edib.

Küçədə yaşayan və ya işləyən uşaqlara sənəd verilməsi mümkün olacaq. Sosial xidmətlər agentliyinin, Dövlət xidmətlərinin inkişafı agentliyinin müraciəti əsasında Ədliyyə nazirliyi sahibsiz və zorakılıq qurbanı olan uşaqlara doğum haqqında şəhadətnamə və şəxsiyyət vəsiqəsi, habelə sərnişin sənədi hazırlayır.

## LANCET TİBB MƏRKƏZİ PASİYENTLƏR ÜÇÜN TƏMƏNNASIZ MARŞRUTLAR AÇIR




Avqustun 2-dən etibarən Yormuğanlı (Qaraçöp) kəndindən səhər saat 9:00-da Tbilisi LANCET Tibb Mərkəzinə doğru mikroavtobus çıxacaq, saat 18:00-da isə Tbilisi LANCET Tibb Mərkəzindən Yormuğanlı kəndinə yola düşəcək.

Eyni qaydada Bolnisi rayonun Darvaz kəndindən çıxan mikroavtobus rayonun yol kənarı kəndlərindən keçərək, Marneuli şəhəri də daxil olmaqla Tbilisi LANCET Tibb Mərkəzinə doğru hərəkətə başlayacaq. Mikroavtobus səhər saat 9:00-da Darvazdan başlayaraq yolboyu pasiyentləti toplayaraq LANSET Tibb Mərkəzinə gətirəcək, 18:00-da isə Tbilisi LANCET Tibb Mərkəzindən əks istiqamətə doğru yola düşəcək.

Qeyd edək ki, bu marşrutlar pasiyentlərə pulsuz xidmət edəcəklər.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

*15 avqust 2016-cı il*
*№015 (29)*

*yeni_yol@mail.ru* | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | *qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur*

## GÜRCÜSTANDA İLK İŞIQFOR NƏ VAXT MEYDANA GƏLİB?



Avqustun 5-də beynəlxalq işıqfor günü qeyd olunur. Tbilisidə ilk işıqfor Rustaveli prospekti ilə Aleksandr Çavçavadze küçəsinin kəsişməsində 1932-ci ildə ildə quraşdırılıb.

Hal-hazırda Tbilisidə 219 işıqfor, həmçinin yol hərəkətini adaptiv idarə edən 121 işıqfor sahəsi, başqa sözlə, “ağıllı işıqforlar” fəaliyyət göstərir.

## TBİLİSİ HEYVANAT PARKINDA AĞ ASLAN BALASI DÜNYAYA GƏLDİ



Keçən ilki sel fəlakətində zərər görmüş Tbilisi heyvanat parkının sakini Kleopatra ləqəbli ağ aslan dünyaya üç bala gətirib.

Məlumata görə, kiçik aslanların doğuşu çətin keçsə də, hazırda ana və yeni doğulanlar özlərini yaxşı hiss edirlər. Öz körpələrini ciddi şəkildə qoruyan dişi aslanı hirsləndirməmək üçün işçilər onlara yaxınlaşmırlar.

Məlumatda bildirilib: “Təxminən bir neçə gündən sonra Kleopatra körpələrini bağlı volyerdən çıxaracaq və hamının yeni doğulanları görmək imkanı olacaq”.

Heyvanat parkı 14 iyun 2015-ci il tarixində dağıdıcı seldən çox böyük zərər görmüşdü. Heyvanat parkının bir neçə əməkdaşı selin qurbanı olmuşdu. Həmin vaxt heyvanat parkı 300-dən artıq, o cümlədən də şir, pələng, canavar, ayı və digər heyvan itirmişdi. Heyvanların bir çoxu qəfəslərdə boğulmuş, bir hissəsi isə şəhərə dağılmışdı ki, qaçan heyvanların çoxu polislər tərəfindən güllələnmişdi.

Gürcüstan hakimiyyəti şəhərin ətrafında, Tbilisi dənizi adlandırılan yerdə indiki heyvanat parkından doqquz dəfə böyük yeni heyvanat parkının tikilməsi barədə qərar qəbul edib.

## AĞCAQANADLARIN SEVDİYİ QAN QRUPU



Yayın gəlişi ilə hərənin qəlbində bir arzu, bir istək baş qaldırır. Kimi yaylağa çıxmaq, kimi dəniz sahillərində isti qumun üzərinə uzanmaq, kimi təbiətin digər gözəllikləri ilə baş-başa qalmaq istəyir. Amma isti yayın da özünəməxsus narahatlıqları yox deyil. Bunlardan biri də bizim qanımızı sorub, bizə divan tutan ağcaqnadlardır. Ağcaqanadlar bəzi insanlarla daha çox öcəşir, onları daha çox sancır. Bəziləri isə onları ağcaqanad sancmadığını söyləyirlər. Bəs bunun səbəbi nədir?

Yaponiyada aparılan araşdırmada məlum olub ki, ağcaqanadlar ən çox birinci qan qrupunu sevir. Alimlər ağcaqanadların birinci qan qrupunu seçməsini bu qan qrupunun daha dadlı olması ilə izah edirlər.

ABŞ-da aparılan araşdırmada isə ağcaqanadların pivə içən insanları daha çox sancdığı göstərilib. Araşdırmada ağcaqanadların gecələr digər vaxtlara nisbətən 500 qat daha hərəkətli olduğu da sübut edilib. Dolayısı ilə ağcaqanadlar qan ovuna gecələr çıxır.

Ayaq qoxusu

Ağcaqanadlar ayaq qoxusuna qarşı da çox həssas olur. Tədqiqatda ağcaqanadların ən çox ayaq qoxusuna gəldiyini, lakin ayaqlar lavanda, rozmarin tərkibli sabunla yuyulduğu zaman həmin adamdan uzaqlaşdığı məlum olub.

Hamilə qadınlar da əsas hədəfdir

Digər qadınlarla müqayisədə hamilələr ağcaqanad sancmasına daha çox məruz qalırlar. Tədqiqata görə, hamiləliyin son mərhələlərində olan qadınların nəfəs vermə nisbəti 21 faiz artır və nəfəsdəki rütubət, karbondioksid ağcaqanadları özünə çəkir. Hamilə qadınların qarın nahiyəsində təxminən 1 dərəcəlik daha yüksək hərarət olduğundan bu, orqanizmin tər yoluyla ağcaqanadlara cəlbedici edən maddələr ifraz etməsinə yol açır.

Qara və qırmızı geyinməyin

Nəfəs verərkən havaya buraxılan karbondioksid və tər laktik turşu kimi maddələr ağcaqanadların ovunu daha asan tapmasına yardım edir. Buna görə də idmanla məşğul olanların sancılma riski daha yüksəkdir. Florida Univertitetinin professoru Bart Knolsun tünd rəng paltar geyənlərin açıq rəng geyinənlərlə müqayisədə ağcaqanadları çox cəlb etdiyini və onların ovuna çevrildiyini qeyd edib. Ağcaqanadları ən çox cəlb edən rəng qara və qırmızı, ən az cəlb edən rəng isə sarıdır.

Xatırladaq ki, ağcaqanadların erkəkləri o qədər də təhlükəli deyil. Belə ki, onlar dişi ağcaqanadlar qədər qana həris olmurlar. Dişilərin qana tələbatları isə yumurtalarını bəsləməkdən qaynaqlanır.

## GƏNCLİK VAHƏSİNİN SAKİNLİRİ – HUNZALAR



Planetimizdə demək olar ki, heç bir xəstəliyə tutulmayan xoşbəxt xalq yaşayır. Onlar 120-150 il yaşayırlar. Bəs bu uzunömürlülüyün sirri nədədir?

Pakistanın şimalında, Hindistan və Çin sərhədinə yaxın Hunza çayı axır. Bu çayın keçdiyi vadi gənclik vahəsi adlanır. Buranın əhalisi bizdən 2 dəfə artıq yaşayır.

Onların həyat devizi belədir: ət yemə, həmişə çalış, çox hərəkət elə, ritmi dəyişmə.

Hunza sakinləri yayda çiy meyvə-tərəvəz, qışda isə ərik qurusu və digər qurudulmuş meyvələr, taxıl və qoyun pendiri ilə qidalanırlar. Yazı onlar “ac” aylar adlandırırlar, çünki meyvə hələ yoxdur, qış ehtiyatı isə tamamilə azalıb. Bu 2-4 ay ərzində xunzalar ac qalır, öz güclərini gün ərzində yalnız bir dəfə ərikdən çəkilmiş içki içməklə qoruyub saxlayırlar. Hərdən, ildə 1-2 dəfə – böyük bayramlarda onlar ət yeyirlər.

Vadi sakinləri günlərinin çoxunu təmiz havada keçirir, 100-200 km-lik “gəzinti”yə çıxır, su prosedurası zamanı 15 dərəcə şaxtada da suyu qızdırmırlar.

Bu cür həyat şəraiti “gənclik vahəsi”nin sakinlərinə xəstələnməməyə və bir əsrdən artıq yaşamağa imkan verir. Deyilənə görə, hətta 40 yaşlı xunzalı qadın gənc qız kimi görünür, 60 yaşlı qadınların bədən forması əvvəlki kimi zərif qalır, 65 yaşlı qadınlar dünyaya uşaq gətirirlər.

Qeyd edək ki, hunza xalqı qədim türk xalqlarından biri hesab edilir.

## FORBES ƏN GƏLİRLİ YAZIÇILARIN REYTİNQİNİ AÇIQLAYIB

2016-cı ilin ən çox gəliri olan yazıçısı müfəttiş Aleks Kross haqqında romanların müəllifi Ceyms Pattersondur. Patterson 95 milyon dollarlıq gəliri ilə reytinqdə birincidir.

Ənənəvi reytinqi Forbes jurnalı tərtib edib.

Reytinqin ikinci pilləsi 19,5 milyon dollar qazancla “Zəifin gündəliyi” bestsellerinin müəllifi Ceff Kinniyə qismət olub.

Üçlüyü Harri Potter və onun komandası haqqında nağılların müəllifi İngiltərənin qadın yazıçısı Coan Roulinq tamamlayır. Onun gəliri 19 milyon dollar qiymətləndirilib.

Bestsellerləri Hollivudda ekranlaşdırılan Con Qrişem 18 milyon dollarlıq gəlirlə reytinqin dördüncüsü olub.

Reytinqin beşinci, altıncı və yeddici pillələrini hərəyə 15 milyon dollar qazanan Ctiven Kinq, Nora Roberts və Daniela Stil tutub.

Səkkizinci pillə 14 milyon dollarlıq gəlirlə E. L. Ceymsə nəsib olub.

Doqquz, on və on birinci pillələr hərəyə 10 milyon dollar qazanmış Pola Xokins, Con Qrin və Veronika Rota qismət olub.

Sonrakı yerlər bu il hərəyə 9,5 milyon dollar qazanan Den Braun, Rik Riordan və Corc Martin arasında bölüşdürülüb.

## QAZAX TOY PALTARI DÜNYANIN ON ƏN YAXŞI GEYİMLƏRİ SIRASINDADIR



Ənənəvi qazax geyimi onluqda beşinci olub. Qazax toy paltarı Filippin, Qora regionu, Transilvaniya, Şotlandiya, Monqolustan və Yaponiyanın ənənəvi toy geyimlərini sıxışdırmaq hesabına ilk beşliyə düşüb.

Çapanlı ənənəvi qazax toy paltarı saukele ilə tamamlanır. Bu isə qədim dövrlərdə gəlinin cehizinin tərkib hissəsinə daxil idi və çox qiymətli hesab olunurdu. Qızın ailəsi nə qədər varlı olardısa, onun baş geyimi – saukeleyə daha dəyərli bəzəklər vurulurdu. Bu baş geyimi qızların ərə getməsindən təxminən bir il əvvəl hazırlanırdı.

Reytinqin dördüncüsü Qananın,üçüncüsü isə Ukrayna Karpatının etnik geyimləri olub. Nigeriyanın ənənəvi geyimləri ikinci, öz mənalılığı və mürəkkəbliyinə görə hind gəlinlərinə məxsus geyimlər isə birinci yeri tutub.

Reytinqi bütün dünyanın toy paltarlarını müqayisə edən Boredpanda.com portalı tərtib edib.

**Təsisçi:**
*“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”*

***Redaktor*:**
**Afiq Muxtaroğlu**
***Yayım Direktoru*:**
**Hacı Bəkiroğlu**

***ÜNVAN:*** Qardabani şəh. Kolxoz küç, 4
***TEL:*** *(+995) 595 92 25 70*
*599 54 12 92*
***EMAİL:*** *yeni_yol@mail.ru*

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.